# Rus politoloq: Erməni silahlıları istənilən yolla Qarabağdan çıxarılmalıdır



15

Səs

№ 146 (6587) 17 avqust 2022-ci il. Qiymәti 60 qәpik

# Müzəffər xalqın zəfər tarixi



5

# 44 günlük Vətən müharibəsi: iradə və birliyimizin ZƏFƏRİ!



7

## "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı" təsdiqlənib



4

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib



4

## Öldür məni, dirildim səni...



10

## Sağlam şəkildə sürətlə necə arıqlamaq olar?



12

## "Çalışacağıq ki, son sınaqdan faydalı şəkildə istifadə edək"



16

# Xalqlarımızın iradəsi əsasında möhkəm əlaqələr qurulur



Ölkələrimiz arasındakı əlaqələr çox yüksək səviyyədədir. Bu əlaqələr xalqlarımızın iradəsi əsasında qurulubdur. Son illərdə həm qarşılıqlı səfərlər, həm əldə edilmiş razılaşmalar Azərbaycan-Türkmənistan əlaqələrini daha yüksək pilləyə qaldırıbdır. SİA xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistanın ölkəmizdəki yeni səfiri Qurbanməmmet Elyasovun etimadnaməsini qəbul etməsi ilə əlaqədar keçirilən görüşdə söyləyib."Bildiyiniz kimi, mənim bu yaxınlarda Türkmənistana səfərim, səfər zamanı yeni seçilmiş Prezidentlə və Xalq Məsləhəti Şurasının Sədri ilə görüşlərim həm qardaşlığımızın növbəti təzahürü, eyni zamanda, gələcək əməkdaşlıq üçün hesablanmış görüşlər idi. Biz bütün sahələrdə iki qardaş ölkə kimi uğurla hərəkət edirik, bir-birimizi dəstəkləyirik, istər beynəlxalq müstəvidə, istər ikitərəfli, istər çoxtərəfli formatda. Son vaxtlar iqtisadiyyat, ticarət, energetika, nəqliyyat, humanitar və digər sahələrdə biz yeni nəticələr görürük. Bu, bizi çox məmnun edir", - deyə dövlətimizin başçısı bildirib.Azərbaycan Prezidenti bir daha qeyd edib ki, bu yüksək səviyyəli çoxşaxəli əməkdaşlıq tarixi köklərə əsaslanır.

## Azərbaycan Prezidenti Almaniya səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemannın etimadnaməsini qəbul edib. Söhbət zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə böyük miqyaslı mina problemi ilə üzləşməsi, Birinci Qarabağ müharibəsindən etibarən 4 min azərbaycanlının itkin düşmüş şəxs hesab edilməsi, həmçinin Azərbaycanın təşəbbüskarı olduğu və Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunmasına xidmət edən sülh gündəliyi məsələləri də müzakirə olundu.Görüşdə işğaldan azad edilmiş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri barədə də fikir mübadiləsi aparıldı.



## Prezident Argentinanın Azərbaycandakı səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Argentina Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Marianxeles Belluşinin etimadnaməsini qəbul edib.Argentina Prezidenti Alberto Fernandesin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdıran səfir Marianxeles Belluşi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.Dövlətimizin başçısı səfirlə söhbət etdi.Prezident İlham Əliyev Alberto Fernandesin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını Argentina Prezidentinə çatdırmağı xahiş etdi.Ölkələrimiz arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu bildirən dövlətimizin başçısı ticari və iqtisadi sahələrdə də əməkdaşlığın genişləndirilməsinin zəruriliyini qeyd etdi və bunun üçün yaxşı potensialın mövcud olduğunu dedi.Bakıda olmaqdan məmnunluğunu ifadə edən səfir paytaxtımızın gözəlliyinin ona dərin təəssürat hissi bağışladığını vurğuladı və ölkəmizdə çox böyük qonaqpərvərliyin şahidi olduğunu bildirdi.Səfir Marianxeles Belluşi iqtisadi-ticari əlaqələrin genişlənməsi və bu baxımdan əməkdaşlığın səhiyyə, texnologiyalar, kənd təsərrüfatı və digər yeni sahələrinin müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi.



## Prezident İlham Əliyev İsveç səfirinin etimadnaməsini qəbul edib

Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveç Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Tobias Lorentzsonun etimadnaməsini qəbul edib.Etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Tobias Lorentzson dedi: Cənab Prezident, İsveç Kralı tərəfindən imzalanan, mənim Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfir təyin edilməyim ilə bağlı etimadnaməni və sələfimin geri çağırılması haqqında məktubu Sizə təqdim etməkdən şərəf duyuram. Cənab Prezident, icazə verin, Əlahəzrət Kralın dostluq və dərin ehtirama dair zəmanətini Sizə yenidən çatdırım.Prezident İlham Əliyev dedi: Xoş gəlmisiniz, cənab səfir və xanım. Sizi görməyimə çox şadam. Sizdən xahiş edirəm, mənim də salamlarımı Kral həzrətlərinə çatdırasınız. Sizə Azərbaycandakı fəaliyyətinizdə uğurlar arzu edirəm. Ümid edirəm ki, iş qrafikiniz sıx olacaq, ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edəcək və bir çox yeni sahələri əhatə edəcək. Biz baxmalıyıq ki, hansı sahədə maksimum nəticə əldə etmək olar. Hesab edirəm ki, biz diqqətimizi əməkdaşlığımızın praktiki məsələlərinə yönəltməliyik - qarşılıqlı ticarətin səviyyəsini necə artıraq, sərmayə qoyuluşu və müxtəlif layihələrin icrası.Dövlətimizin başçısı daha çox İsveç şirkətinin Azərbaycanda fəaliyyət göstərəcəyinə və ölkələrimiz arasında ticarət dövriyyəsinin artacağına ümidvar olduğunu bildirdi. Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunan Prezident İlham Əliyev bu əlaqələrin uğurla inkişaf etdiyini dedi, əməkdaşlığın son zamanlar yeni mərhələyə qalxaraq təkcə energetika sahəsini deyil, eləcə də nəqliyyat dəhlizləri, ticarət, investisiya və digər sahələri də əhatə etdiyini məmnunluqla bildirdi və bunun da öz növbəsində Azərbaycan-İsveç ikitərəfli münasibətlərinin inkişafı üçün yaxşı zəmin yaradacağını vurğuladı.Azərbaycanda ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən səfir Tobias Lorentzson dedi: Mən ikitərəfli münasibətlərimizin gücləndirilməsinə töhfə vermək arzusundayam. Sizin də qeyd etdiyiniz kimi, buraya ticarət və sərmayə qoyuluşu daxildir və mən ümid edirəm ki, ölkələrimiz arasında daha sıx biznes təmaslarını təşviq edə biləcəyəm. Həmçinin buraya dayanıqlı biznes həlləri də daxildir. Eyni zamanda, ümid edirəm ki, insanlar arasında ünsiyyətin və ölkələrimiz arasında təmasların artırılmasına nail ola biləcəyəm. Bu, həm də Avropa İttifaqı-Azərbaycan əlaqələrinin də vacib aspektlərindəndir.Söhbət zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.



# Milli-mənəvi sərvətimiz: dini ziyarətgahlar





Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, istər sovet məkanında, istərsə də müstəqillik dövründə yaşadığımız illərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasına və inkişafına çox böyük önəm verib. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. İslami dəyərlərə böyük hörmətlə yanaşan Azərbaycan başqa dinlərə diqqət və qayğı ilə yanaşır. Dövlət başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir. Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin. Dövlət başçısının vurğuladığı kimi: ”Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək, dayaq olur”. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir.

## XALQIMIZIN TOLERANTLIĞININ BARİZ GÖSTƏRİCİSİ: ERMƏNİ KİLSƏSİ

Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə, nüfuza malik olan, prinsipial və ədalətli mövqeyi ilə seçilən Azərbaycanın multikultural dəyərləri dünyaya örnək, nümunədir. Amma Qarğabazar kəndində Cəlil turbəsi, Aşağı Veysəlli kəndində Mirəli turbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə turbəsi, Füzuli şəhərində məscid binası, Aşağı Aybasandı kəndində İbrahim turbəsi və s. onlarla belə tarixi əhəmiyyətli abidələrimiz ermənilər tərəfindən işğal dövründə dağıdılıb. Bütün bunlar Ermənistan tərəfindən Azərbaycana qarşı olan ərazi iddiasının nəticəsində baş vermişdir. Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə yaşadır. Erməni qəsbkarlarının işğalı altında olan ərazilərimizdəki abidələrin saxtalaşdırılması istiqamətində apardığı olduğu siyasəti Ermənistanın özünü təsdiqləmək, tarixi, mədəniyyətini yaratmaq siyasətinə xidmət edirdi. Amma Bakıda isə erməni kilsəsi qorunub-saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir. Bu gün tolerantlığın məkanı, multikultural ənənələrə, islam dininə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: ”Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk” Son illər Bakıda və regionlarda dini ziyarətgahların, ibadət yerlərinin tikintisi və mövcud olanların yenidən qurulması prosesi uğurla davam etdirilir. İslam aləminin müqəddəs ziyarətgahlarından olan Bibiheybət məscid-kompleksinin tikilərək dindarların istifadəsinə verilməsi, bununla yanaşı, Təzəpir məscid-kompleksində yenidənqurma işlərinin aparılması bu siyasətin məntiqi davamıdır. Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi ”Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilib. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində ”Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur. Azərbaycanda paytaxt Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində ”Xanım Fatimeyi Zəhra” məscidinin müasir kompleksinin istifadəyə verilməsi müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpasına dövlətimiz tərəfindən ayrılan diqqətin daha bir göstəricisi oldu. Dini abidələrimizin təmir və bərpası Azərbaycanda bu sahədə dövlət siyasətinin real mənzərəsinin ifadəsidir.

## ”BÜTÜN XALQLARIN BİRGƏ YAŞAMASI BİZİ UĞURA, QƏLƏBƏYƏ GƏTİRƏCƏK VƏ GƏTİRİB”

Azərbaycandakı multikultiralizm və tolerant mühit mövcud dəyərlərimizə əsaslanır. Bu dəyərlər tarix boyu formalaşmış və etnik zənginliyi ilə seçilən Azərbaycanda müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində yaşamış və bu gün də belədir. Müxtəlif xalqların adət-ənələrinə, dininə hörmətlə yanaşma xalqımızın milli keyfiyyəti olmaqla yanaşı, humanizm dəyərlərinə, birgəyaşama mədəniyyətinə söykənir. Əlbəttə ki, bu gün müxtəlif dövlət qurumlarında qeyri-xalqların nümayəndələri təmsil olunur, ölkəmizin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayırlar. Qarabağ uğrunda gedən döyüşlərdə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri həmrəy oldular. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda müharibədə iştirk etdilər. Azərbaycan vətəndaşı olaraq bir yumruq altında birləşdilər və silaha sarıldılar. ”Mən daxilən 100 faiz buna əminəm ki, ancaq birlikdə, bütün xalqların birgə yaşaması bizi uğura, qələbəyə gətirəcək və gətirib”, - deyən Cənab Prezident qed edib ki, İkinci Qarabağ müharibəsində bütün xalqların nümayəndələri bir əsgər kimi vuruşdular, qan tökdülər, şəhid oldular. Vətən uğrunda, Qarabağ uğrunda, Azərbaycan uğrunda vuruşdular. Bu Qələbə və bu müharibə Azərbaycanda yaşayan bütün xalqları daha da birləşdirdi. ”Dəmir yumruq”, sadəcə, güc deyil, bu, birlikdir. Bizdə bu gün olan birlik, hesab edirəm ki, hər bir ölkə üçün, multikonfessional və çoxmillətli ölkə üçün nümunə ola bilər. Çünki bu siyasətin uğurlu olması təkcə dövlətdən asılı deyil, hər bir vətəndaşdan asılıdır. Hər bir vətəndaş öz davranışı ilə bu ideyaları tərənnüm etməlidir. Belə olan halda, Azərbaycanda yaşayan bütün xalqlar, Azərbaycan vətəndaşları daim sülh şəraitində, əmin-amanlıq, qardaşlıq şəraitində yaşayacaqlar”. Bu birlik, həmrəylik sağlam mühitə, tolerant və multikultural mühitə söykənir. Hətta Şuşada keçirilən ”Xarıbülbül” musiqi festivalında ölkəmizdə yaşayan qeyri-xalqların təmsilçiləri iştirak etdilər. Dünyaya bir mesaj olaraq çatdırıldı. Dövlət başçısının bildirdiyi kimi, ”Bu da bir daha onu göstərir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır. Uzun fasilədən sonra Şuşada təşkil edilmiş ”Xarıbülbül” festivalının ilk günündə Azərbaycanda yaşayan xalqların nümayəndələri səhnəyə çıxmış və öz mədəniyyətlərini nümayiş etdirmişlər”.

## BİRGƏYAŞAMA MƏDƏNİYYƏTİ

Azərbaycanda onlarla müxtəlif dini qurum, birlik və icmaların fəaliyyətdə olması ölkəmizdə hökm sürən bu mühiti əsaslandıran amillər sırasındadır. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, ”Yeni həyat” Xristian İncil dini icması, Bakı şəhəri ”Molokan ruhani-xristian” dini icması, Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və digər qurumlar ölkəmizdə sərbəst və azad şəkildə fəaliyyət göstərirlər. Bu bir daha ona əsaslanır ki, molokanlar, yəhudilər, tatlar, saxurlar, ləzgilər üçün Azərbaycanda geniş imkanlar yaradılıb və hər bir xalqın nümayəndəsi rahat və azad nəfəs alır. Azərbaycanda təkcə yəhudilərin 7 sinaqoqu, 2 orta məktəbi, 1 kolleci, 3 uşaq bağçası və Yəhudi Evi fəaliyyət göstərir. Qeyri-xlqların yaşadığı Krasnaya Sloboda, İvanovka kimi kəndlərə daima dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir. Qəbələnin qapısından içəri daxil olan insanlar azərbaycanlıların, udilərin, ləzgilərin, rusların və digər etnosların buradakı yaşam tərzini gördükdə heyrətlənir və hətta qibtə belə edirlər. Belə mühit demokratik dəyərləri ilə öyünən Qərb ölkələrində təsadüf olunmur. Çoxmillətli və fərqli mədəniyyətlərin qovuşduğu Qəbələdə tarixboyu hansısa qarşıdurmalara, narahatçılıq doğuran məqamlara rast gəlinməyib. Bu məkanın milli tərkibinə nəzər salsaq görərik ki, burada yaşayan əhalinin 80 faizə qədərini azərbaycanlılar, digər hissəsini isə ləzgilər, udilər, türklər və başqa millətlər təşkil edir. Müxtəlif xalqların nümayəndələri yaşadıqları üçün burada ümumtəhsil məktəblərinin ibtidai siniflərində ləzgilər və udilər üçün öz ana dillərində dərslər keçirilir. Bu gün Nic qəsəbəsinin tolerantlığın kiçik modeli kimi də qəbul edilməsi də əbəs deyildi. Qəsəbədə üç kilsə, iki məscid, habelə müsəlmanların və xristianların ziyarət etdikləri müqəddəs yerlər var. Onu da bildirək ki, 10 minə yaxın udinin 4 minə yaxını məhz burada, Qəbələnin Nic qəsəbəsində gözəl, rahat bir şəraitdə yaşayır. Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. Bu gün ölkəmizin istənilən bir məkanında azlıq təşkil edən xalqlara dövlətimiz tərəfindən dilini, dinini, adət-ənənələrini, mədəniyyətlərini qoruyub saxlamaq və inkişaf etdirmək üçün hər cür şərait yaradılıb. Və bu Azərbaycanın multikulturalizm modelidir ki, öyrənilir və tədqiq olunur. Amma Ermənistan isə monodövlətdir. Burada hökm sürən vəziyyət ermeni xislətini bir daha ortaya qoymuş olur. ”Onlar hesab edirdilər ki, bu, onların üstünlüyüdür” - deyən Cənab Prezident qeyd edib ki, hətta onların rəhbərləri və onların ictimai fəalları müharibədən, İkinci Qarabağ müharibəsindən əvvəl deyirdilər ki, Ermənistanın bir üstünlüyü var ki, burada ancaq ermənilər yaşayır, Azərbaycanda isə müxtəlif xalqlar yaşayır. Onların çirkin təbliğatı ona yönəlmişdi ki, əgər müharibə başlayarsa, burada qatma-qarışıq olacaq, xalqlar bir-birinin üzünə duracaq. Amma nə oldu? Yaşayan bütün xalqlar bir adam kimi durdular ayağa, sinələrini qabağa verdilər, düşməni təpiklə qovdular bizim torpağımızdan. Bir daha göstərdik ki, bax, bu yetişən nəsil və ənənələr nə deməkdir. Bir daha demək istəyirəm, bax, biz, hər birimiz bu dəyəri qorumalıyıq və Azərbaycan siyasəti bundan sonra bu istiqamətdə aparılmalıdır və aparılacaqdır”.

Azərbaycanda onlarla müxtəlif dini qurum, birlik və icmaların fəaliyyətdə olması ölkəmizdə hökm sürən bu mühiti əsaslandıran amillər sırasındadır. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, ”Yeni həyat” Xristian İncil dini icması, Bakı şəhəri ”Molokan ruhani-xristian” dini icması, Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və digər qurumlar ölkəmizdə sərbəst və azad şəkildə fəaliyyət göstərirlər. Bu bir daha ona əsaslanır ki, molokanlar, yəhudilər, tatlar, saxurlar, ləzgilər üçün Azərbaycanda geniş imkanlar yaradılıb. Qeyri-xalqların yaşadığı Krasnaya Sloboda, İvanovka kimi kəndlərə daima dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir. Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir.Heydər Əliyev Fondunun dünya mədəni irsinin bərpasına yönələn xeyriyyəçilik fəaliyyəti Almaniyada Berlin qəsri, Versalda qədim abidələr, Fransada aşağı Normandiyadakı kilsə və Luvr muzeyi, müqəddəs Marçellinio və Pietro qədim əlyazmaları və katakombaları, Vatikanda San Sebastian katakombaları, İtaliyada Kapitoli muzeyində filosoflar zalı, Bolqarıstanda Trapezitsa muzeyi və digər bu kimi bir çox ölkələri əhatə edib. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən dini ocaqlarımıza məscidlərimizə olan münasibət Azərbaycanda dindövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “İşğaldan azad edilmiş ərazilərin Ümumi planı” təsdiqlənib



Baş nazir Əli Əsədov ”İşğaldan azad edilmiş ərazilərin Ümumi planı”nın təsdiq edilməsi haqqında qərar imzalayıb. SİA xəbər verir ki, qərarla ”İşğaldan azad edilmiş ərazilərin Ümumi planı” təsdiq edilib.

## “Son bir il ərzində 861 nəfər sərhəd rejim pozucusu saxlanılıb”

“Dövlət Sərhəd Xidmətinin bütün sahələrində ardıcıl həyata keçirilən islahatların səmərəliliyi ilk növbədə xidməti göstəricilərdə öz əksini tapıb. Azərbaycan sərhədçiləri tərəfindən son bir il ərzində 448 nəfər sərhəd pozucusu, 861 nəfər sərhəd rejim pozucusu saxlanılıb”. SİA-nın verdiyi məlumata görə, bu sözləri Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Abbas Xəlilov dünən keçirilən mətbuat konfransında deyib. O bildirib ki, bir il ərzində 2 594 nəfər hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan, 5 nəfər özgəsinə məxsus, 289 nəfər saxta sənədlə dövlət sərhədini pozmağa cəhd edərkən saxlanılıb: ”Ümumi dəyəri təxminən 76 443 870 manat olan qaçaqmalın, o cümlədən 95 151 ədəd psixotrop dərman preparatının və 1 ton 14 kq 275 qram narkotik vasitələrin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb”.



## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib



Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib. SİA-nın xəbərinə görə, bununla bağlı məsələ Mərkəzi Seçki Komissiyasının (MSK) dünən keçirilən iclasının gündəliyinə daxil edilib.

Məsələ barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədrinin müavini Rövzət Qasımov və MSK katibi Arifə Muxtarova məlumat veriblər.Bildirilib ki, 113 saylı Şəki şəhər seçki dairəsinin və 13 saylı Xəzər-Pirallahı seçki dairəsinin tərkibində dəyişiklik edilib.

## DSX-nin balansında olan helikopterlərin durumu ilə bağlı açıqlama verilib

“Qaraheybət” ərazisində Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin qəzaya düşməsi ilə bağlı cinayət işi açılmışdı və bununla bağlı ictimaiyyətə konkret cavablar verilib. Həmin məlumata bizim əlavəmiz yoxdur”. SİA-nın xəbərinə görə, bunu Dövlət Sərhəd Xidmətinin Aparat rəhbəri general-mayor Elçin İbrahimov dünən keçirilən mətbuat konfransında deyib.Onun sözlərinə görə, ancaq hazırda DSX tərəfindən bütün helikopterlərin yararlılığı yoxlanılıb:”Onların fəaliyyətinə təsir edəcək hər hansı bir amil yoxdur”.

## “Beynəlxalq Ordu Oyunları-2022” yarışlarında Azərbaycan pavilyonuna maraq böyükdür”

“Beynəlxalq Ordu Oyunları-2022” yarışları çərçivəsində Rusiya Federasiyası Moskva şəhərinin Alabino poliqonunda təşkil olunan ”Dostluq evi”ndə yaradılmış Azərbaycan pavilyonu ziyarətçilərdə böyük maraq doğurur. Bu barədə SİA-ya Müdafiə Nazirliyindən məlumat verilib. Oyunlarda iştirak edən nümayəndələr və qonaqlar sərginin Azərbaycana aid bölməsində ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələri, eləcə də məişətinə aid nümayiş olunan ekspozisiyaları maraqla izləyirlər.



# Bakıda Azərbaycanla Qırğızıstan arasında hökumətlərarası komissiyanın 4-cü iclası keçirilib

Avqustun 16-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 4-cü iclası keçirilib. SİA xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Komissiyasının Azərbaycan tərəfdən həmsədri Əli Əhmədovun və Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini, Komissiyanın Qırğızıstan tərəfdən həmsədri Bakıt Torobayevin sədrlik etdikləri iclasda hər iki ölkənin müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.İclasın məhdud tərkibdə keçirilən hissəsində gündəlikdə duran, həmçinin iki ölkə arasında praktiki əməkdaşlığın müxtəlif aspektləri ilə bağlı konkret məsələlər ətrafında fikir mübadiləsi aparıldı.Tədbirin əsas hissəsini giriş sözü ilə açan Baş nazirin müavini Ə.Əhmədov Azərbaycan-Qırğızıstan dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluğunu ifadə etdi.İkitərəfli əlaqələrin inkişafında ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin və bu səfərlər zamanı əldə edilən razılaşmaların və imzalanan sənədlərin müstəsna rolunu qeyd edən Ə.Əhmədov Qırğız Respublikasının Prezidenti Sadır Japarovun aprel ayında Azərbaycana rəsmi səfəri zamanı dövlət başçıları tərəfindən imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin dövlətlərarası münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırdığını bildirdi.İki ölkə arasında fəal siyasi dialoqun aparıldığı, Azərbaycan və Qırğızıstanın beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq həyata keçirdiyi və bir-birini dəstəklədiyi vurğulandı.Azərbaycan-Qırğızıstan xarici ticarət dövriyyəsinin hazırkı həcminin, mövcud iqtisadi əlaqələrin ölkələrin real imkanlarına cavab vermədiyi diqqətə çatdırıldı. Bu baxımdan işgüzar əlaqələrin qurulması və inkişafı, ikitərəfli ticari-iqtisadi əməkdaşlığın konkret istiqamətlərinin müəyyən edilməsi məqsədilə birgə işgüzar tədbirlərin təşkilini, sahibkarlıq fəaliyyəti üçün qarşılıqlı əlverişli şərait yaradılmasının, müştərək iqtisadi və investisiya layihələrinin təşviqinin vacibliyi qeyd edildi.Ə.Əhmədov, eyni zamanda, Azərbaycan-Qırğızıstan əlaqələrinin digər istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, nəqliyyat-tranzit, energetika, sənaye, mədəni-humanitar sahələrdə inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşdü.Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü barədə danışan Baş nazirin müavini 30 il işğal altında qalan və 44 günlük Vətən müharibəsi nəticəsində azad olunan əzəli Azərbaycan torpaqlarında hərbi cinayətlərin törədildiyini, Azərbaycan xalqının mədəni-mənəvi irsinin məhv edildiyini diqqətə çatdırdı.Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə yaranan yeni geosiyasi və geoiqtisadi reallıqlar barədə söhbət açan Ə.Əhmədov regionda nəqliyyat-kommunikasiya sisteminin bərpasının böyük perspektivlər vəd etdiyini və bütün bölgə ölkələri üçün faydalı olacağını vurğuladı.Azərbaycanın maksimum konstruktivlik və xoş məram nümayiş etdirərək Ermənistan ilə münasibətləri normallaşdırmağa, sülh sazişi imzalamağa və sərhədlərin delimitasiyasına hazır olduğu bildirildi.Təəssüflə qeyd olundu ki, Ermənistanın öz öhdəliklərinə əməl etməməsi regionda gərginliyin əsas səbəbidir. Ermənistan ordusunun və qanunsuz erməni hərbi birləşmələrinin ünsürləri hələ də Azərbaycan ərazisindən tam çıxarılmayıb ki, bu, rəsmi İrəvan tərəfindən 2020-ci il 10 noyabr Bəyanatının müddəalarının pozulması deməkdir.Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayev Azərbaycan ilə Qırğızıstan arasında ali səviyyədə siyasi dialoqun inkişaf etdiyini, ticari-iqtisadi sahədə əməli əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanların mövcud olduğunu bildirdi.B.Torobayev Azərbaycanın biznes dairələrini Qırğızıstanda investisiya imkanlarını fəal öyrənməyə çağırdı, bunun, iki ölkə arasında işgüzar əməkdaşlığın fəallaşmasına kömək edəcəyinə əminliyini ifadə etdi.İclasda, həmçinin hər iki ölkənin nümayəndə heyəti üzvlərinin məruzələri dinlənildi, gündəlikdə duran məsələlər ətrafında geniş müzakirələr aparıldı.Sonda Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayev Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 4-cü iclasının Protokolunu imzaladılar.







**PREZİDENT İLHAM ƏLİYEV: "Bizim Ermənistana sülh təklifimiz qalib ölkənin təklifidir"**



# Müzəffər xalqın zəfər tarixi

"Mən bir neçə dəfə demişəm ki, biz Ermənistanla sülh müqaviləsini imzalamağa hazırıq. Yəni, bu işlərin başlanmasına hazırıq. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil". Bu fikirləri Prezident İlham Əliyev Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasimindəki çıxışında bildirib. Dövlətimizin başçısı onu da vurğulayıb ki, Ermənistanın bu hərəkəti, çox böyük bir səhv olacaq: "Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər. Çünki bizim bu təklifimiz yeni real vəziyyətə əsaslanır. Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir". "Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik. Biz bütün quruculuq işlərimizlə bağlı planları sistemli şəkildə həyata keçiririk və artıq quruculuq işlərinə start verilib. Biz, dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İnsanlar ora qayıdacaq, öz dədə-baba torpağında rahat yaşayacaqlar"", - deyə Prezident İlham Əliyev vurğulayıb. Bəli, dövlət başçımızın dediyi kimi, bu gün Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, bölgədə sabitliyin tam bərqərar olması üçün əməli-praktiki addımlar atır. Və 2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev yenə də diktə edən tərəfdir. Azərbaycan Prezidenti haqlı olaraq dəfələrlə bəyan edir ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir. İndi şərtləri cənab İlham Əliyev diktə edir: Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın "Qarabağ Ermənistanındır" sərsəm fikrindən sonra xitam verilib.

Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu günə kimi bu razılığı kobud şəkildə pozmaqla erməni hiyləsini, riyakarlığını, normal dövlət ola bilməməsini bir daha dünyaya nümayiş etdirir, Azərbaycan dövləti isə haqq yolunda, Vətən yolunda mübarizə aparır. Və Paşinyan başa düşməlidir ki, monoetnik Ermənistandan fərqli olaraq, Azərbaycan multikultural dəyərlərə, tolerantlığa və hər bir xalqın milli-mədəni irsinə hörmət prinsiplərinə sadiqdir. Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşadan regiona və dünyaya etdiyi çağırışları bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti rəhbəri olduğu ölkə bölgənin təhlükəsizliyi, sabitliyi və inkişafı üçün sülhə hazır olmaqla bərabər, həm də sülhün təminatçısı kimi çıxış etmək iqtidarındadır. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi bunun təsdiqidir.Və Ermənistanın vaxtaşırı olaraq Azərbaycanın daxili işlərinə qarışacaq bəyanatlar verməsi davam edərsə, o zaman Azərbaycan Ermənistanın növbəti təxribatına həmişə olduğu kimi layiqli cavabını verəcək. Bu gün sivil dünya da görür və əmindir ki, Ermənistandan fərqli olaraq, Azərbaycan dövləti və xalqı regionda sülhün əldə olunması üçün çalışır. Prezident İlham Əliyev müsahibələrində də demişdir ki, biz sülh istəyirik, yetərincə müharibə oldu: "Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik. Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular da bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik". Və bu gün də Azərbaycanın haqlı tələbi: belə davam etsə...Yəni ermənilər sülh, sabitlik, əmin-amanlıq və inkişaf istəyirlərsə, onda Azərbaycanın ərazi bütövlüyünü tanımalıdırlar. Əks-təqdirdə onlar üçün sülh də olmayacaq, sabitlik də, əmin-amanlıq da. Üstəlik, iqtisadi böhrandan heç zaman xilas ola bilməyəcəklər. Biz həm Birinci, həm də İkinci Qarabağ müharibələrində şəhid olmuş, itkin düşmüş, ömürlük əlilə çevrilmiş soydaşlarımızın qanının yerdə qalmaması üçün bütöv və qüdrətli Azərbaycan dövləti yaratmalıyıq və yaradırıq. Əgər kimsə bu prosesə mane olmaq istəsə, onda başı üstündə "dəmir yumruğu" görəcək. Bu baxımdan, ermənilərin revanşist fikirləri, sadəcə, xəyal olaraq qalacaq. Ermənistan təkcə döyüş meydanında deyil, bütün istiqamətlərdə məğlub oldu. Ermənistanın yeganə çıxış yolu Azərbaycanın sülh çağırışlarına müsbət cavab verməkdir. Əks halda, Ermənistanın mövcudluğu sual altında qalacaq.

**ERMƏNİSTAN HƏLƏ DƏ MƏCBURƏN ÖZ ÜZƏRİNƏ GÖTÜRDÜYÜ ÖHDƏLİKLƏRİNİ YERİNƏ YETİRMİR**

Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədəki çıxışında qeyd etmişdir ki, cari ilin altı ayı ərzində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, əfsuslar olsun ki, hələlik real nəticələr əldə olunmayıb. Baxmayaraq ki, Vətən müharibəsindən 1 il 8 ay ötüb, ancaq Ermənistan hələ də məcburən öz üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir. Cənab Prezidentin müşavirədə Azərbaycan- Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı söylədiyi fikirlər qarşı tərəfə önəmli mesajlardır. Ermənistan tərəfi başa düşməlidir ki, revanşist açıqlamaların, bəyanatların, sülh prosesindən yayınmağa cəhd göstərilməsinin onlara heç bir faydası yoxdur. Bununla cənab Prezident tərəfindən Ermənistana növbəti xəbərdarlıq etdi. Dövlətimizin başçısı budəfəki çıxışında da Ermənistan rəhbərliyini və oradakı revanşist qüvvələri kənardan yönəldənləri mesajsız buraxmadı. Bunlardan biri erməni silahlı qüvvələrinin Qarabağdan hələ də çıxarılmaması ilə bağlıdır. Prezidentimiz Ermənistanın siyasi-hərbi rəhbərliyini növbəti dəfə xəbərdar etdi: "Əgər Ermənistan Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, onda bizə bunu açıq desin, biz də işimizi bilək. Bizim cavabımız nə olacaq? Onu bəlkə də indi demək yersizdir. Ancaq bu, 10 noyabr Bəyannaməsinin kobudcasına pozulması deməkdir". Prezident İlham Əliyev bu məsələ ilə bağlı şimal qonşumuza da mesaj göndərdi: "Rusiya sülhməramlıları- Rusiya tərəfi də 10 noyabr Bəyannaməsini imzalayıb-necə deyərlər, onları buna məcbur etmir. Əlbəttə ki, bu, dözülməz vəziyyətdir". Prezidentin həssas diplomatik üslubda ifadə etdiyi bu mesajı, xüsusilə, tərəfsizliyi ilə seçilməli olan vasitəçiyə məhz davranışına görə tərəf deyilməsi, sözsüz ki, diqqət çəkir və eyni zamanda, vasitəçi ölkəni öhdəliyinə daha diqqətli yanaşmağa dəvət edir. Prezident İlham Əliyevin ikinci xəbərdarlığı isə Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistan rəhbərliyinin ənənəvi olaraq tutduğu qeyri-konstruktiv mövqeyi ilə bağlı oldu: "Ona görə biz haqqımızı tələb edirik. Əgər biz 10 noyabr Bəyannaməsinin bütün müddəalarını icra ediriksə, Ermənistandan da eyni yanaşma tələb edirik. Özü də 1 il 8 ay keçib və bunu hər kəs nəzərə almalıdır". Dövlətimizin başçısı Ermənistanın Minsk qrupu ilə bağlı xam xəyallarına və ermənilləri bu sevda ilə yaşadanlara da növbəti dəfə cavab verdi: "Qarabağ münaqişəsi həll olunub, Qarabağ mövzusu bağlanıb. Qarabağ Azərbaycandır! Bunu mən demişəm və haqlı olaraq demişəm, indi bunu hamı deyir. O cümlədən Ermənistan deyir-öz xoşu ilə yox, məcburən. Bu məsələ ilə bağlı müzakirə apardığımız bütün ölkələr, təşkilatlar deyir".Heç şübhəsiz ki, Prezident İlham Əliyevin Avropa İttifaqı ilə bağlı verdiyi bu mesaj da bölgəmizə aşırı maraq göstərən dövlətlərin diqqətindən yayınmadı: "Yaxın günlərdə Avropa İttifaqı ilə Azərbaycan arasında önəmli sənəd-enerji təhlükəsizliyi ilə bağlı sənəd imzalanacaq və bizim əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır". Prezidentin bu məlumatından cəmi üç gün sonra, iyulun 18-də "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandı. Ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı xüsusi rolunu təcəssüm etdirən bu mühüm sənədin imzalanmasından dərhal sonra Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen mətbuata bəyanatında bu fikri xüsusi vurğuladı: "Prezident İlham Əliyev, ümumiyyətlə, Avropa İttifaqı Sizin regionla sıx bağlıdır. Biz tərəfdaşlığımıza dəyər veririk və bu tərəfdaşlıq zaman keçdikcə ardıcıl şəkildə daha da inkişaf edəcək və dərinləşəcək. Bir daha bizi burada qəbul etdiyinizə və birgə Anlaşma Memorandumunun imzalanmasına görə təşəkkür edirəm". O da danılmaz həqiqətdir ki, Azərbaycan Prezidentinin beynəlxalq arenada ortaya qoyduğu qətiyyətli siyasi iradə ölkəmizin etibarlı tərəfdaş imicinin formalaşmasına xidmət göstərdiyi kimi ölkədaxili uğurlara da zəmin yaradır və Azərbaycan ətrafında təhlükəsizlik zolağının güclənməsinə töhfə verir. Prezident İlham Əliyev məhz bütün bu amillərə görə, cari ilin birinci yarısının yekunlarına həsr olunmuş müşavirədə bu fikri xüsusi qeyd etdi: "Çünki hər bir ölkəyə daxili siyasəti düzgün aparmaq üçün müsbət beynəlxalq fon lazımdır - ilk növbədə, qonşuluqda, digər tərəfdən də dünyada. Bu gün, sadəcə olaraq, altı ayın nəticələri onu göstərir ki, biz buna nail ola bilmişik". Bəli, Prezident İlham Əliyev ölkənin rəhbəri kimi 19 illik fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləməklə, həm də Azərbaycanın haqqın, ərazi bütövlüyü uğrunda apardığı İkinci Vətən Müharibəsində Azərbaycan xalqının 30 illik həsrətinə 44 gün ərzində son qoymaqla bütün dünyaya sübut etdi ki, "Dağlıq Qarabağ problemi yoxdur!" deməklə Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır! Çünki bu Qələbə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə güclü iqtisadiyyat, güclü dövlət, güclü ordu, rəşadətli əsgər və zabitlərimizin igidliyi ilə nail oldu, Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, tarixi ədaləti bərpa etdi. Və bu gün ordusu olmayan Ermənistan Azərbaycan üçün təhlükə mənbəyi ola bilməz, olduğu halda onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır: "Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz. Necə ki, 44 gün ərzində nə qədər bizi dayandırmağa çalışdılar, nə qədər bizi hədələdilər, təzyiq etdilər, təhdid etdilər. Heç kim bizi dayandıra bilmədi". Və bu gün Azərbaycanın Ermənistana sülh təklifi, dövlət başçımızın dediyi kimi: "Bizim Ermənistana sülh təklifimiz qalib ölkənin təklifidir, müzəffər xalqın təklifidir".

**RƏFİQƏ HÜSEYNOVA**

# Brüssel görüşündən GÖZLƏNTİLƏR



Üçtərəfli bəyanatın imzalanmasından, Nikol Paşinyanın kapitulyasiya sənədinə imza atmasından il yarımdan çox, az qala iki ilə yaxın vaxt keçir, amma hələ də Ermənistan tərəfi üzərinə götürdüyü öhdəliklərə əmək etmir, bunu uzatmaqla nəyə isə ümid edir. Təbii ki, imzalanan sənədlərdən sonra Ermənistanın hansısa başqa çıxış yolu qalmır və gec-tez öz öhdəliklərini yerinə yetirmək məcburiyyətindədir. Bunu ermənilər anlayışla qəbul etməsələr də bütün dünya çox yaxşı başa düşür və Ermənistan tərəfindən də həm gözləntiləri, həm də tələbləri budur.Dəfələrlə şahidi olmuşuq ki, tərəflərin, yəni Azərbaycan və Ermənistan tərəfinin razılığa gəlməsi, daha doğrusu ermənilərin vədlərinə əməl etməkdən boyun qaçırmamaları üçün Avropa Şurası öz səylərini əsirgəməyib. Hətta görüşlərin təşkil edilməsinə də nail olub və Ermənistan tərəfinin öz öhdəliklərinə əməl edilməsi barədə dəfələrlə xatırlatma edilib. Hər dəfə ermənilər görüş zamanı vədlər versələr də, görünən odur ki, hələ də vaxtı uzatmaqla nəyə isə nail olacaqlarına ümid edirlər. Ola bilsin ki, suda boğulan saman çöpünə əl atdığı kimi, ermənilər də vaxtı uzatmaqla, öhdəliklərinə əməl etmələrini gecikdirməklə nəyə isə nail olacaqlarını zənn edirlər, amma bərk yanılırlar.

Maraqlıdır, bu qədər vaxt ərzində bütün dünyanın diqqət mərkəzində olan məsələlər erməniləri heçmi yuxudan ayıltmadı? Görmədilərmi, dərk etmədilərmi ki, artıq yalanları ayaq tutub yerimir və beynəlxalq hüququn norma və prinspləri əsasında onlardan öhdəliklərinə əməl etmələri tələb edilir? Bu qədər görüşlərin təşkil edilməsi onlardan normal, qanunauyğun hərəkətlər gözlənildiyini təsdiq etmirmi və bunu dərk etmək ermənilər üçün çoxmu çətindir? Məsələ burasındadır ki, Ermənistan tərəfi görməməzliyə vursa da, vurmasa da hadisələrin gedişi onu göstərir ki, danışıqların ruhuna uyğun olaraq bütün dünya bu edilməsi lazım olan hərəkətləri gözləyir. Yəni, ermənilərin öz öhdəliklərini yerinə yetirməkdən boyun qaçırmaq kimi bir şansları da yoxdur və bunu nə qədər tez anlasalar özləri üçün də bir o qədər yaxşı olar.Onu da diqqətə çatdıraq ki, daxilindəki çəkişmələr, qarşıdurmalar, hətta toqquşmalar fonunda Ermənistan tərəfi üzərinə düşən öhdəlikləri yerinə yetirmək, məsələlərini həll etmək iqtidarında deyil. Sanki heç nəyə gücü çatmır bu ölkənin. Hətta bu ölkənin acizliyi də diqqətdən yayınmır. Buna baxmayaraq öhdəlik yerinə yetirilməlidir və bu onlar üçün nə Paşinyanın verdiyi vəd deyil, nə də ondan əvvəlkilərin boş-boş danışıqları. Elə bunu onlara anlatmaq üçün də bu zamana qədər dəfələrlə görüşlər təşkil edilir və bu ölkənin nə etməli olduğu yadına salınır. Brüssel görüşləri də bu qəbildən olan görüşlərdir ki, bunu Ermənistan tərəfi əslində anlamalı, üzərinə düşənin öhdəsindən gəlməyə çalışmalıdır. Ən azından həmin ölkənin hakimiyyəti buna iradə nümayiş etdirməlidir, amma bunun əksi müşahidə olunur.Göründüyü kimi, Brüssel görüşlərinin təşkil edilməsi əbəs yerə deyil. Avropa İttifaqının müəyyən məsələlərdə nəticə əldə etməyə çalışdığı da göz önündədir. Bir-birinin ardınca görüşlər təşkil edilməsində məqsəd yenə də işğalçı tərəfə bəzi məqamları, onların yerinə yetirmələri vacib olan məsələləri yadlarına salmaq, hətta bunun icrasını belə tələb etməkdir. Əks halda bu qədər görüşlər, beynəlxaq platformalar təşkil edilməzdi. Görəsən, bunu ermənilər gec də olsa anlayıblarmı və bundan dərs çıxarmaq niyyətləri varmı? Məhz bu sual ətrafında düşündükdə adama elə gəlir ki, növbəti dəfə Brüsseldə keçiriləcək görüşün nə dərəcədə məhsuldar olacağını söyləmək olduqca çətindir, amma bacibliyi də danıla bilməz.Hər dəfə keçirilən görüşlərdə olduğu kimi, Ermənistan tərəfi bu dəfə də hansısa nəticə hasil etməyə, yubanmalarının onlar üçün nə qədər ağır nəticələr vəd etdiyini anlamaya bilər, amma Azərbaycan tərəfinin öz mövqeyindən geri çəkilməyəcəyi indidən bəllidir və onların bunu nəzərə almaları çox vacibdir. Ermənistan tərəfi dərk etməlidir ki, Azərbaycan öz tələblərindən vaz keçmək fikrində deyil. Əksinə, ölkəmiz öz tələblərini daha sərt şəkildə bəyan etməkdədir və bunun qarşısını alacaq heç bir səbəb və bəhanə ola bilməz. Brüssel görüşündə də Azərbaycanın öz tələblərində israrlı olacağı zərrə qədər də şübhə doğurmur və Qarabağdakı separatçıların tərksilah olunması, ərazimizi tərk etməsi tələb olaraq yenə də qarşıya qoyulacaq.Torpaqlarımızda əlisilahlı dəstənin olması, mövcudluğu bizim üçün qəbuledilməzdir. Artıq ermənilərin hansısa əlisilahlısına bizim torpağımızda ağlına gələni etmək, təxribatlar, terror törətmək imkanı verilməyəcək. Heç bir əlisilahlı, ələlxüsus erməni əsilli terrorçiya güzəşt edilməyəcək və onlar torpaqlarımızı tərk etməlidirlər. Əks halda aqibətləri daha dəhşətli, daha ağır ola bilər. Ermənilərin, erməni separatçı-terrorçuların son təxribatlarına cavab olaraq Azərbaycan tərəfinin "Qisas" adlandırdığı əməliyyatı keçirməsi və qarşı tərəfi yerində oturtması təsdiq edir ki, ermənilər bundan dərs çıxarmasalar növbəti dəfə yenə də itgilərlə üzləşməli olacaqlar və onların sığınacaq yerləri də yoxdur.

Azərbaycan bu dəfə də Brüsseldə öz tələblərini kəskin şəkildə qoyacaq. Bunun üçün ehtiyat ediləcək nə bir məqam var, nə də çəkiniləcək məsələ. Ölkəmiz beynəlxalq hüquqa zidd heç bir addım atmayıb, atmır və atmayacağını da bəyan edir. Əksinə, bəyan edilir ki, Azərbaycan ərazisində hərhansı silahlı dəstəyə, separatçı-terrorçu qruplaşmaya terror törətmək, təxribatlara belə yol açmaq imkanı və şansı verilməyəcək. Biz öz torpaqlarımızı işğaldan azad etdiyimiz, ərazi bütövlüyümüzü bərpa etdiyimiz, qoruduğumuz kimi, həmin torpaqlarda təhlükəsizliyin təmin edilməsi üçün istənilən əməliyyat keçirməkdə haqlıyıq və qanuna zidd heç bir hərəkətə yol vermirik. Öz ərazilərimizin separatçılardan, terrorçulardan və təxribatçılardan təmizləmək kimi bir haqq və hüququmuz var və bizim bu hüququmuz beynəlxalq müstəvidə də tanınır, qəbul edilir. Heç şübhəsiz ki, bu dəfə də Brüsseldə keçiriləcək görüş zamanı bu məqamlar ermənilərə bir daha xatırladılacaq.Həmçinin kommunikasiya ilə bağlı məsələlərin də səsləndirilməsi gözlənilir. Çünki kommunikasiya vasitələri açılmalıdır və bunun əksini düşünmək belə olmaz. Azərbaycan bu məsələdə də israrlıdır. Ermənistan tərəfindən bu məsələyə ciddi yanaşması dəfələrlə tələb olunub da. Avropa İttifaqı üçün də bu, çox vacib məqamdır. Belə olan halda, Brüssel görüşündə bu məsələnin də, yəni kommunikasiyaların açılma məsələnin də gündəmdə olacağı barədə əminliklə demək olar.Sülh danışıqlarının da müzakirə olunacağı şübhə doğurmur. Ona görə ki, Avropa İttifaqının belə görüşləri təşkil etməkdə məqsədi Azərbaycan və Ermənistan arasında çoxdandır ki, görmədiyi sülhün olacağını görmək arzusudur. Dünya ölkələrinin hamısı barədə bunu demək mümkün olmasa da, hansısa beynəlxalq təşkilatın Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlı olduğunu cəsarətlə söyləyə bilərik, çünki müharibə şəraiti onlar üçün arzuolunmazdır. Bu baxımdan da Azərbaycanla Ermənistan arasında bağlanılması gözlənilən sülh müqaviləsinin Brüsseldə müzakirəyə çıxarılacağını da söyləmək olar. Sülh danışıqlarının baş tutması üçün isə əlbəttə ki, ilk növbədə sərhədlərin delimitasiyası, demarkasiyası olmalıdır. Bunlar olmadığı təqdirdə hansısa sülhdən danışmaq gülünc səslənərdi. Bu nöqteyi nəzərdən sərhədlərin delimitasiyası və demarkasiyasının da müzakirə olunacağı şübhə doğurmur.

Göründüyü kimi, Ermənistan tərəfi artıq əməli addımlara keçməli, verdiyi vədlərə əməl etməlidir və bunu bütün dünya gözləyir. Brüsseldə bu dəfə də görüş təşkil edilməsi bunu təsdiq edir. Təsdiq edir ki, Avropa İttifaqı da Ermənistan tərəfinin əməli addımlar atmasını istəyir. Bu zamana qədər vaxt uzatmalarının, hadisələri yubatmalarının heç bir faydası olmadığı bu dəfə də ermənilərə Brüsseldə xatırladılacaq. Xatırladılacaq ki, rəsmi Bakı boş vədlər deyil, əməli addımlar gözləyir və bu məsələdə haqlıdır da.Sözsüz ki, Ermənistanın hansısa əməli addımlar sərgiləmədiyi təqdirdə, verdiyi vədlərinə əməl etmədiyi halda adekvat addımlar atmaqda Azərbaycan haqlı sayılır. Bunun da ermənilərə xatırladılması gərəkir və çox güman ki, bu barədə də bildiriləcək.

***İnam Hacıyev***

# "Ermənilər gələcək üçün illüziyalar qurmasınlar"



"Azərbaycan Prezidenti İlham Əliyevin İsmayıllı rayonuna səfəri zamanı bir sıra istiqamətlərdə Azərbaycan dövlətinin hədəflərini və məqsədini geniş ictimaiyyətə açıqladı". Bu sözləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.Onun sözlərinə görə, eyni zamanda Azərbaycan dövlətinin gələcəyi, iqtisadiyyatı, turizmi və qeyri-neft sektorunun inkişafı ilə bağlı Azərbaycan dövlətinin geniş baxışını və konsepsiyasını açıqlamış oldu: "Neft kapitalının insan kapitalına çevrilməsini, müxtəlif istiqamətlərdə peşəkar kadrların hazırlanmasını və çox saylı iş yerlərinin açılması ilə bağlı baxışlarını, mövqeyini ifadə etmiş oldu. Hesab edirəm ki, səfər zamanı Azərbaycan Prezidenti Cənab İlham Əliyevin açıqladığı xüsusən Qarabağ bölgəsində Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarət zonasında baş verən təxribatlar, vətəndaşlığımızı qəbul edəcək ermənilərin gələcək taleyi, Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsi, sərhədlərin delimitasiya və demarkasiyası, böyük sülh müqaviləsinin imzalanması, Ermənistan və Azərbaycan arasında müxtəlif istiqamətli nəqliyyat kommunikasiya əlaqələrinin qurulması, Zəngəzur dəhlizinin gələcəyi ilə bağlı fikirlərinin səslənməsi, xüsusən də Ermənistan və Azərbaycan arasında mehriban qonşuluq şəraitində yaşaması ilə bağlı Azərbaycanın vizyonu və baxış istiqamətləri diqqət çəkir. Azərbaycan prezidenti xüsusilə bir necə istiqamətdə həm Azərbaycan cəmiyyətinə, həm bölgə xalqlarına, Ermənistan cəmiyyətinə, həm də Ermənistan üzərindən oyunlar quraraq bölgədə proseslərə müdaxilə etmək istəyən güclərə mesajını vermiş oldu. Birincisi Azərbaycan Prezidenti açıq şəkildə bəyan etdi ki, avqustun əvvəllərində erməni qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan ordusunun əsgərinə qarşı törədilmiş təxribata cavab olan "Qisas" əməliyyatı onu göstərdi ki, heç bir qüvvə və güc Azərbaycanı haqq yolundan döndərə bilməz. Erməni təxribatçılarının törətdiyi cinayətlərin cavablandırılması istiqamətində Azərbaycan iradəsinə müdaxilə edə biləcək heç bir güc mövcüd deyil. Erməni silahlı qüvvələri bölgəni qısa müddətdə tərk etməlidir. Heç bir başqa alternativ yol mümkün deyil. Ermənistandakı revanşistlər, bölgədəki separatçı qüvvələr proseslərə real yanaşmalıdırlar. Kiməsə arxayın olub, gələcək üçün illuziyalar qura bilməzlər. Bölgənin sahibi Azərbaycandır və dövlətimizin iradəsinin əksinə olan heç bir addım atıla bilməz. Buna Azərbaycanın lideri imkan verməz".

Politoloq Anar Əliyev sözlərinə əlavə edərək bildirib ki, ikinci böyük istiqamət odur ki, Azərbaycan prezidenti ilk dəfə Qarabağda vətəndaşlığımızı qəbul edəcək erməni əsilli şəxslərin Azərbaycan dövlətinin qurumlarına qarşı münasibətini bəyan etmiş oldu: "Azərbaycan prezidenti bildirdi ki, Laçın dəhlizinə alternativ yolun çəkilməsi zamanı biz yerli ermənilərdən bir çox hallarda hətta kömək belə gördük. Onlar yaxınlaşraq tikinti prosesini həyata keçirən azərbaycanlılarla ünsiyyət qurmağa çalışırdılar. Bu onu göstərir ki, bölgədə yaşayan ermənilər də Azərbaycan dövləti ilə əməkdaşlıqdan və Azərbaycan dövləti ilə ünsiyyətin qurulmasından başqa yolların qalmadığını bilirlər. Üçüncü mühüm istiqamət odur ki, Azərbaycan Ermənistana üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli olduğunu bir daha xatırlatdı. Bəyan etdi ki, Ermənistan üzərinə götürdüyü öhdəlikləri ya könüllü yerinə yetirəcək, ya da biz onu öhdəlikləri yerinə yetirməyə məcbur edəcəyik. Dördüncü istiqamət odur ki, Azərbaycan Zəngəzur dəhlizi ilə bağlı Ermənistandan qısa müddət ərzində dəhlizin keçəcək maşrutunun təqdim olunmasını gözlədiyini bildirdi. Sonuncu mühüm istiqamət isə odur ki, Azərbaycan Prezidenti bölgədə heç bir halda ermənilərə statusun verilməyəcəyi ilə bağlı bir daha mövqeyini göstərdi. Dəfələrlə qeyd edilən yanaşma bir daha ifadə edildi. Bir daha bəyan edildi ki, Azərbaycan ərazisində heç bir etnik qrupa ermənilər də daxil olmaqla əlavə heç bir status verilməyəcək. Azərbaycan bütün vətəndaşlarının hüquqlarını qoruduğu kimi ermənilərin də təhlükəsizliyini təmin etmək gücündədir. Azərbaycan prezidentinin çıxışından bölgədəki ermənilər, speratçı rejim, Ermənistan düzgün nəticə çıxarsalar baş verənlər sürətli və daha ağrısız olacaq. Əks halda Azərbaycan növbəti qəti məcburetmə əməliyyatı başlada bilər".

***Qönçə Quliyeva***

# 44 günlük Vətən müharibəsi: iradə və birliyimizin ZƏFƏRİ!

**_Tarix boyu Azərbaycana qarşı işğalçılıq siyasətinin yeridərək torpaq iddiası ilə ölkəmizə əl uzadan ermənilərə Azərbaycan 44 günlük Vətən müharibəsində elə bir dərs ki, ermənilər tarix boyu bunu unutmayacaqlar və o əllər məhv edilib. "Vətən" deyib cəbhəyə yola düşən Azərbaycan əsgəri döyüşdə gücünü erməniyə göstərdi._**

Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun şücaəti, igidliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu. Azərbaycan ordusu düşməni öz torpaqlarından qovdu. Cənab Prezidentin vurğuladığı kimi, "Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu? Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq". Əlbəttə ki, Azərbaycan ordusu yeni tarix yazdı. Azərbaycan bayrağı işğaldan azad olunan torpaqlarımıza sancıldı və bu, hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisə idi.

Bu günlərdə Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürməsi, ordumuzun gücünü bir daha ortaya qoymuş oldu. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi. Ordumuz Buzdux dağı və ətraf yüksəklikləri azad etməklə həm də hərbi-strateji əhəmiyyətli Ağdaban, Çayqovuşan, Vəngli, Narıştar kəndləri, habelə "Sərsəng" su anbarına viziual nəzarət etmək imkanı qazandı. "Qisas" cavab əməliyyatı bir daha erməniyə Azərbaycan Ordusunun gücünü göstərmiş oldu.

## TARİXİ ƏDALƏTSİZLİK

Tarixdən bizə məlumdur ki, son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin "tarixi əzəli torpaqları"nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında "Gülüstan", "Türkmənçay", Rusiya və Türkiyə arasında "Andrianopol" müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar.

Tarixin yazılmış səhifələrindən bizə bəllidir ki, 1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəlir. Vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq ideyası ortaya atılır. Həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur olurlar. Ermənipərəst qüvvələrin və millətçilərin yürütdükləri məkrli siyasət nəticəsində 1923-cü ildə Azərbaycanın az sayda ermənilərin yaşadığı ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır.

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə, Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunmuşdu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.



Tarixi proseslərin davamı olaraq. iyirminci əsrin sonunda 1988-ci ildən başlayaraq, Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

## "ZƏNGƏZUR TARİXİ, ƏZƏLİ AZƏRBAYCAN TORPAĞIDIR"

Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır. Tarixi mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilib ki, Zəngəzur türklərin qədim yurd yeri olub. Zəngəzurdakı türk mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. Xalqımıza qarşı həyata keçirilən tarixi ədalətsizlik öz qiymətini alacaq. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində "Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana verilməsi böyük ədalətsizlik idi", - deyə bildirmişdir. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır, - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev Zəngəzurun tarixi dövrdəki əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu qeyd etmişdir. Təbii ki, mənbələrdə göstərildiyi kimi, Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları olub. Tarixi ədalətsizliyin sağalmayan yara olduğunu qeyd edən Cənab İlham Əliyev "vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq", - deyə əminliyini ifadə etmişdir. "Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur",- deyən Azərbaycan Prezidenti bildirib ki, əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var: "Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq".

Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində indi Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etmək haqqıdır.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə Zəfərlə yazıldı. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Həmin sənəd əsasında Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarıldı. Azərbaycan Prezidenti İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına müraciətində bu xoş müjdəni çatdırarkən bildirmişdir: "Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

## "DƏMİR YUMRUQ ONLARIN BELİNİ QIRDI, ONLARIN BAŞINI ƏZDİ"

Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Əlbəttə ki, bu Zəfər hər bir azərbaycanlının başını uca edib, onları qürurlandırıb. Bu gün dünya ölkələrinə müxtəlif məqsədlərlə səfər edən insanlarımız Qalib xalqın nümayəndəsi olaraq fəxarət hissi keçirirlər.

Azərbaycanın əzəli, tarixi torpaqları bu gün işğaldan azad olunub. Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. "Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü", - deyən Prezident bildirib ki, bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi: "Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

Bu gün də Cənab Prezidentin dəfələrlə vurğuladığı kimi, "dəmir yumruq" yerindədir.



***Nəzakət ƏLƏDDİNQIZI***

# Konyada islam dünyasının birlik və həmrəylik günləri yaşanır








Tarixin bütün dönəmlərində Avropa ölkələrinin xalqları islam mədəniyyətinə, incəsənətinə hörmətlə yanaşaraq, bu mədəniyyətlə mübadilənin həyata keçirilməsinə maraq göstərmişlər. Heç şübhəsiz ki, islam öz dəyərləri ilə Qərb dünyasını hər zaman üstələyib. Azərbaycan bu gün mədəni, milli dəyərlərimizi təşviq etmək üçün əlindən gələni edir. Belə ki, ölkəmiz islamı sülh, qardaşlıq və tolerantlıq dini kimi təqdim etmək məqsədilə dünyanın bir çox ölkələrində beynəlxalq konfranslar, sərgilər və s. keçirir. "İştirak etdiyimiz bütün beynəlxalq forum və təşkilatlarda müsəlman qardaşlarımızı dəstəkləməkdə davam edəcəyik, öz məqsədlərimizə nail olacağıq, müsəlman aləmində hamımız üçün çox zəruri olan daha güclü tərəfdaşlıq və birlik quracağıq"- deyə çıxışlarının birində vurğulayan Azərbaycan Prezidenti Cənab İlham Əliyev islamın sülh və qardaşlıq dini olduğundan dəyərlərimizi təşviq etmək və keçmişimizi, bu günümüzü və gələcəklə bağlı planlarımızı düzgün şəkildə çatdırmaq üçün daha fəal olmağın vacibliyini diqqətə çəkib. İslam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Bildiyimiz kimi, qədim şəhərimiz olan Naxçıvanşəhərinin və paytaxt Bakının İslam mədəniyyətinin paytaxtı seçilməsi ölkəmizin bu sahədə həyata keçirdiyi siyasətə verilən dəyər idi, birlik və həmrəyliyin nümayişi idi. Bildiyimiz kimi, Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, ölkəmizdə Cənab İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. Məlumdur ki, İslam Həmrəyliyi Oyunları İslam Həmrəyliyi İdman Federasiyası tərəfindən keçirilən çoxmillətli və çoxidmanlı tədbirdir. İlk Oyunlar 2005-ci ildə Səudiyyə Ərəbistanında keçirilmişdir. Sayca İkinci İslam Həmrəyliyi Oyunlarının ilkin olaraq 2009-cu ilin oktyabrında İranda keçirilməsi nəzərdə tutulsa da, daha sonra tədbir 2010-cu ilin aprel ayına təxirə salındı və sonradan ləğv olundu. Növbəti Oyunlar 2013-cü ildə İndoneziyada baş tutdu.

### İDMAN ARENALARINDA AZƏRBAYCANIN DÖVLƏT HİMNİ 75 DƏFƏ SƏSLƏNDİ

İslam Həmrəyliyi İdman Federasiyasının səkkizinci seçilmiş Baş Assambleyası Səudiyyə Ərəbistanının Ciddə şəhərində dördüncü İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Azərbaycanda keçirilməsinə qərar vermişdir. Bakı 2017 IV İslam Həmrəyliyi Oyunları 12-22 may tarixlərində keçirildi. Bakı 2017 IV İslam Oyunları 4 əsas dəyər - "Birlik", "Sülh", "Hörmət", "Mükəmməllik" dəyərləri üzərində qurulan Oyunlar "Gücümüz həmrəylikdədir" devizi altında keçirildi. Rəsmi talismanlar - "İncə" və "Cəsur" Azərbaycanın milli sərvəti olan Qarabağ atlarının rəmzləridir."Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var", - deyən Cənab Prezident bildirib ki, buna görə də 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. "İslam Həmrəyliyi İli"nin əsas məqsədləri müsəlman aləmində birliyi möhkəmləndirmək, İslamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir. Hesab edirəm ki, bu ilin mayında Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunları təkcə idman yarışı olmayacaq, eyni zamanda, bütün İslam dünyasının birlik, həmrəylik günləri olacaqdır". Bu, belə də oldu.

İdman oyunlarında 21 idman növü üzrə 54 dövlətin 3 000-dən çox idmançısı mübarizə apardı. Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəldi. İslam Həmrəyliyi Oyunlarının tarixində bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmamışdı. Atletlər 269 dəst medal uğrunda mübarizə apardılar. "Bakı-2017"də iştirak edən ölkələr arasında Azərbaycan idmançıları xalqımızı parlaq qələbələri ilə sevindirərək 75 qızıl, 50 gümüş və 37 bürünc medalla (cəmi 162 medal) birinci oldular. İdman arenalarında Azərbaycanın dövlət himni 75 dəfə səsləndi, dövlət bayrağı 162 dəfə qaldırıldı. Millimizin aktivinə ən çox medal cüdoçularımız tərəfindən yazıldı. Onlar, ümumilikdə, 26 medal - 11 qızıl, 12 gümüş və 3 bürünc əldə etdilər.Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn beşinci (21 medal) yerdə qərarlaşdı. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazandılar.Bütün bunlar Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür.

IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan su səyahətinə aprelin 5-də Prezident İlham Əliyevin iştirakı ilə start verildi. Xəzərdən başlayan su səyahəti Azərbaycanın 15 regionunu əhatə etdi. Oyunların su səyahətinin, təntənəli açılış və bağlanış mərasimlərinin təşkilinə 31 ölkədən 5000-dən çox səhnə mütəxəssisi, texniki heyət və aktyorlar qrupu cəlb olundu.





## BİRLİYİMİZİN, HƏMRƏYLİYİMİZİN VƏ İMKANLARIMIZIN NÜMAYİŞİ

"Bakı-2017"ni 50-dən artıq ölkədə 1 milyarddan çox tamaşaçı izlədi və yarışları 1000-dən çox media nümayəndəsi işıqlandırdı. "Biz dinimizin əsl simasını, mədəniyyətimizi, tarixi irsimizi, potensialımızı və bəşəriyyətin inkişafına verdiyimiz töhfəni nümayiş etdiririk" - deyən Cənab Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarına Azərbaycanın ev sahibliyi etməsini birliyin nümayişi olduğunu vurğulamışdı: "Bu, təkcə idman tədbiri deyildi. Bu, bizim birliyimizin, həmrəyliyimizin və imkanlarımızın nümayişi idi. Ona görə də, biz bütün müsəlman ölkələri arasında həmrəyliyə öz töhfəmizi verməyə çalışırıq". "Bakı - 2015" ilk Avropa Oyunlarında olduğu kimi, sülh, əmin-amanlıq və sabitlik ölkəsi olan Azərbaycanda "IV İslam Həmrəyliyi Oyunları"ı da idman tarixinə yeni səhifə yazdı. Bildiyimiz kimi, dörd ildən bir keçirilən beynəlxalq idman tədbiri İslam Həmrəylik Oyunlarında İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin idmançılar iştirak edir



## KONYADA MÜZƏFFƏR XALQIN İDMANÇILARI QALİB XALQ OLARAQ AZƏRBAYCAN BAYRAĞINI DALĞALANDIRIRLAR

Bu gün isə Beşinci İslam Həmrəyliyi Oyunları Türkiyənin Konya şəhərində keçirilir. Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında artıq Azərbaycan millisinin hesabında yeni qızıl və gümüş medallar qazanıb. İdman tariximizə yeni səhifələr yazılıb. Müzəffər xalqın idmançıları qalib xalq olaraq Azərbaycan bayrağını dalğalandırırlar. Qeyd edək ki, Azərbaycan təmsilçiləri İslamiadada 24 idman növündən 22-sində iştirak edir. Yarışda 56 ölkədən 4 mindən artıq idmançı medallar uğrunda mübarizə aparır. İdmançılar atıcılıq, atletika, basketbol (3x3), velosiped, gimnastika (idman, bədii, aerobika), futbol, qılıncoynatma, güləş, ağır atletika, həndbol, cüdo, karate, kikboksinq, stolüstü tennis, kamandan oxatma, taekvondo, voleybol, üzgüçülük və milli oxçuluq növlərində yarışırlar. Oyunlar vaxtı 483 dəst medal sahibini tapacaq.

Azərbaycan idman ölkəsi statusunu qoruyub saxlayır. İnanırıq ki, zəfər qazanmış ölkəmizi təmsil edən idmançılarımız yenə də yüksək imici qoruyub saxlayaraq, layiqli yerlərdən birinə sahib olacaqlar. Bu gün müsəlman aləminin gənc nəsilləri milli, ənənəvi dəyərlərimizə əsaslanaraq formalaşması əsas məsələlərdən biri olaraq qarşıda durur. Azərbaycan da öz növbəsində dəyərlərimizi təşviq etmək üçün əlindən gələni edir. Prezident İlham Əliyevə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu İdarə Heyətinin qərarına əsasən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun "Gənclərin hamisi" ilk Fəxri Nişanının verilməsi də elə ölkə başçısının bu təşkilatın gəncliyinin inkişafına yönəlmiş fəaliyyətə, eləcə də quruma üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsinə verdiyi daimi və müstəsna dəstəyə görə idi. Bu gün Azərbaycan islam ölkələrinin gənclərinin bir araya gəlməsində əhəmiyyətli rola malik bir məkandır və islami dəyərlərə böyük önəm verən ölkəmizdən yetişən nəslin əxs edəcəyi çox böyük məqamlar var. Azərbaycan öz əqidəsinə, milli dəyərlərinə sadiq bir dövlətdir. Bu baxımdan da təmsil olunduğu beynəlxalq forum və təşkilatlarda islam dünyasını, müsəlmanları dəstəkləyir, güclü tərəfdaşlıq əlaqələrini genişləndirir.

***Zümrüd BAYRAMOVA***



# Öldür məni, dirildim səni...







**Ata-babalarımız torpağı ən yaxşı gəlir mənbəyi bilib övladlarına da zaman-zaman bunu təlqin ediblər. Ağac əkmək, bağ salmaq, torpağın bir qarışını belə, boş qoymamaq bir baba nəsihəti, ata öyüdü olub. Torpağın böyük bir xəzinə olduğunu əlləri zəhmətdən naxışlar-qırışlar alan babalarımız təsdiqləyib. Ona baş əyəni torpaq başıuca edib, tər verənə zər, bağrını yarana bar-bərəkət verib.Torpaqda izi olanın cəmiyyətdə, camaat arasında nüfuzu da olub. Əkin-biçin insanların daim ehtiyacını ödəyib, ömürlərdən ötən neçə-neçə müharibə dövrlərinin yeganə ruzi qaynağı olmaqla çətinliklərin aşılmasına yardım edib. İnsanların alın açıqlığı, bəzən isə gözlərinin tək dikəcəyi olub.**

## Torpağa qayıtmağın vaxtıdır...

İllərdir ki, ölkə iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı sektorunun inkişafı, neftdən asılılığın aradan qaldırılması diqqətdə saxlanılır, həyata keçirilən ümumi islahatlar bu sahənin tərəqqisinə xidmət edir.Lakin bu gün artıq bütün dünya qlobal ərzaq qıtlığı ilə üzləşir. Bu qıtlıq təbii ki, bizim ölkəmizdən də yan keçmir. Dövlətimizin başçısının da dediyi kimi: Biz əlbəttə, öz iqtisadiyyatımızı dünya iqtisadiyyatına inteqrasiya edərək bazar iqtisadiyyatının bütün təməl prinsiplərini Azərbaycanda tətbiq etdik. Bu gün Azərbaycanın ümumi daxili məhsulunun strukturuna baxsaq, görərik ki, ümumi daxili məhsulumuzun əksər hissəsini özəl sektor formalaşdırır, həm yerli şirkətlər, həm xarici investorlar, xarici şirkətlər. Belə olan halda dünyada gedən istənilən iqtisadi proses bizə də təsirsiz ötüşmür, bizə də təsir edir. O cümlədən dünyada mövcud olan ərzaq mallarının bahalaşması da, əlbəttə ki, bizə də təsir edir. Bu il dünyanın əksər ölkələrində inflyasiya ikirəqəmli inflyasiyadır. Bildiyiniz kimi, inkişaf etmiş ölkələrdə inflyasiya çox aşağı səviyyədə olur. İndi biz hətta o ölkələrdə ikirəqəmli inflyasiyanı görürük.

Qiymətlərin artımı ilə hər gün qarşılaşırıq. Dünya ölkələrində baş verən müharibələr də bu qıtlığa geniş imkanlar yaradır. Bu səbəbdən də ölkələr bir-biri ilə əvvəlki kimi iqtisadi əlaqələr qura bilmirlər. Mütəxəssislərin fikrincə, bu hal qarşıdakı illərdə daha da genişlənəcək, ərzaq qıtlığı böyük problemə çevriləcəkdir. Bu barədə ölkəmizin başçısı deyir: Ərzaq mallarının qiymətinin qalxması da Azərbaycana bir növ, - əgər belə demək mümkündürsə, - idxal olunub. Çünki biz hələ də özümüzü tam, yəni, 100 faiz əsas ərzaq məhsulları ilə təmin edə bilmirik. Ancaq bu istiqamətdə ardıcıl işlər aparılır. Məsələn, bizim üçün ənənəvi olmayan heyvandarlıq sahəsində, yəni, - mən sovet dövrünü nəzərdə tuturam, o vaxt heyvandarlıq Azərbaycanda demək olar ki, az inkişaf etmişdi, - bu gün biz özümüzü ət məhsulları ilə 90 faiz, quş əti ilə 80 faiz, süd, süd məhsulları ilə 85 faiz səviyyəsində təmin edirik. Əminəm ki, növbəti 3-5 il ərzində biz yüz faiz səviyyəsinə çıxacağıq, baxmayaraq ki, tələbat da artır. Çünki əhali artır.Bəli, əhali sayının artmasını, ehtiyacın çoxalmasını nəzərə alsaq, bu gün artıq torpağa qayıtmağın vaxtıdır. O mənada ki, indiyədək kimlərsə pay torpaqlarını, həyətindəki boş sahələri hansısa bir səbəbdən əkmirdisə, başqa bir sənətlə, peşə ilə məşğul idisə, bundan sonra eyni zamanda torpağını da əkməyə vaxt ayırmalıdır. Əks təqdirdə qarşıdakı illərdə ərzaq qıtlığı hər birimizin başlıca probleminə çevriləcəkdir. Torpaq nə deyir, deyir ki, əz məni, əzizləyim səni, altımı-üstümə çevir, xəzinə qoyum süfrənə, bol-bərəkətli edim ev-eşiyini. Torpaq deyir, mənə vaxt ayır, mən sənə yaxşı bir həyat bəxş edim. Biz nə edirik? İşləməyin dərdindən torpaqlarımızı boş saxlayırıq. Hansı ki, torpaq ən gəlirli sahədir. Sadəcə ona meyl sala, məhəbbət verə, onunla ünsiyyət qurmağı bacarmalısan.

## Torpaq bağ-bağça, taxıl zəmisi, bostandır...

Torpaq ona əyiləni başına tac edəndir. Torpaq ona üz tutanın üzünü ağ edəndir. Torpaq qara rəngli nemətdir. Bu qara rəngin üzərində min bir rəngin başlanğıcıdır. Güldür-çiçəkdir, ucsuz-bucaqsız yaşıllıqdır, bağ-bağçadır. Bazarlarımızı bəzəyən min bir rəngli nemətlərin hamısının yaradıcısıdır. Belə isə nə üçün bu qara rəngi bağ-bağçaya çevirib, al-əlvan bir gözəllik yaratmayaq. Axı o həm gözəllik, həm də qazanc mənbəyidir.

*Ardı Səh. 11*

# Öldür məni, dirildim səni...



Əvvəli Səh. 10

Mütəxəssislər deyirlər ki, salınan bir bağ bir neçə ildən sonra ilk, nübar məhsulunu verir. Sonrakı illərdə isə bu bağların məhsulunu yığıb yığışdırmaq olmur. Artıq dünyadakı ərzaq qıtlığı torpaqdan hər cür istifadə etməyin vaxtının çatdığını qoyur ortaya. Kimi bağ, kimi bostan salmaqla, kimi taxıl əkməklə, kimi digər kənd təsərrüfatı məhsullarını becərməklə bazarlarımızı zənginləşdirə bilər. Həmçinin ehtiyat anbarlarına töhfəsini verə bilər. İndi hələ də rayonlarımızda babalarımızdan qalmış bağlar var ki, onların övladları bu bağların bəhrəsini yeyirlər. Deməli, babalarımız vaxtında torpağın nəyə qadir olduğunu bilərəkdən bu bağları salıbmış. Onlar bilirdilər ki, torpaq ona üz tutanı əliboş qaytarmaz. Bu səbəbdən də alma, armud, şaftalı, alça bağları indi də Hüseyn, Həsən, Murad kişilərin bağları kimi yaşamaqdadır. Bu ənənə davam etdirilməlidir. Az zəhmət tələb edən, lakin çox gəlirli sahə olan bağçılığın inkişaf etdirilməsi bu gün çox vacibdir. Taxılçılığın inkişaf etdirilməsi isə bizim üçün daha vacib amildir. Çünki taxıl çörəkdir. Çörək isə əmin-amanlıq, firavanlıqdır. Taxıl bol olarsa, çörəyimiz heç vaxt bahalaşmaz. Ölkəmizdə bütün təbəqələrdən olan insanlar çörək sarıdan çətinliklə üzləşməzlər.

Ölkəmizin başçısı taxılçılıqla bağlı deyir: Amma əfsuslar olsun ki, biz özümüzü taxılla hələ uzun illər tam təmin edə bilməyəcəyik. Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək. Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır. Ona görə taxılın qiymətinin dünya bazarlarında qalxması bütün ölkələrə təsir göstərir. Ancaq bugünkü vəziyyət ondan ibarətdir ki, təkcə qiymətdən söhbət getmir, eyni zamanda, taxıl qıtlığı yaşanır. Bildiyiniz kimi, Rusiya-Ukrayna müharibəsi nəticəsində bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər. Çünki taxılın əsas ixtracatçıları Rusiya və Ukrayna olduğu halda, indi müharibə əlbəttə ki, bu məsələdə çox böyük əngəllər törətmişdir. Ancaq Azərbaycanda bu sahədə heç bir problem yoxdur. Biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm taxıl ixrac edilir və ediləcək. Gübrəyə gəldikdə isə, bildiyiniz kimi, biz özümüz də artıq gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik. Amma digər gübrələr Azərbaycana idxal olunur.

## Azad torpaqlarımız bar verməyə tələsir

30 il erməni işğalı altında qalan, sinəsi doğmasının belinə, dırmığına, kərəntisinə həsrət torpaqlarımız artıq iki ilə yaxındır ki, azad edilib. Düşmən bu torpaqlardan birdəfəlik qovulub. 30 il nəfəsini içinə çəkən torpaqlarımız azad nəfəs alır indi. Bu torpaqlarda əkin işləri artıq başlayıb. Lakin əkilməyi, bol məhsul verməyi gözləyən torpaqlarımız hələ çoxdur. Bu bərəkətli torpaqların hamısının əkilməsi isə ölkə iqtisadiyyatına böyük töhfə deməkdir.

Prezident İlham Əliyev: Azad edilmiş ərazilərdə həm kənd təsərrüfatı, həm maldarlıq, həm bitkiçilik üçün çox münbit iqlim və təbii şərait var. Biz, əlbəttə ki, maksimum dərəcədə bundan səmərəli şəkildə istifadə etməliyik. Eyni zamanda, ərzaq təhlükəsizliyi ilə bağlı mövcud olan məsələlər, bu günün məsələləri deyil. Sadəcə olaraq, Rusiya-Ukrayna müharibəsi nəticəsində bu məsələlər daha da kəskinləşir. Əlbəttə, torpaqlarımız işğalçılardan azad olunandan sonra mən dərhal göstəriş verdim ki, biz vaxt itirmədən bu torpaqlarda əkin-biçinlə məşğul olmalıyıq. Bu il 50 min hektarda taxıl əkilmişdir və artıq məhsul yığımı da sona çatmaq üzrədir. Düzdür, məhsuldarlıq çox aşağıdır, bu da təbiidir. Çünki uzun illər bu torpaqlar istifadəsiz qalmışdır, suvarma da yoxdur, dəmyə şəraitində taxıl yetişdirilir və birinci ildir ki, əkin aparılmışdır. Ona görə hektardan orta məhsuldarlıq təqribən 1 tondan aşağıdır. Ancaq əminəm ki, növbəti illərdə məhsuldarlıq daha da artacaq, əkin sahələri artacaq. Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektarı dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə. Xüsusilə nəzərə alsaq ki, bizim əsas çaylarımız da erməni işğalına məruz qalmışdı. Mənfur düşmən bizi öz suyumuzdan da məhrum etmişdi. Bildiyiniz kimi, Tərtər çayının suyundan biz faktiki olaraq istifadə edə bilmirdik. Həkəri çayın suyundan, Bazar çayın suyundan istifadə edə bilmirdik. Bunlar, azad edilmiş torpaqlarda əsas çaylardır, amma o çayların sayı daha da çoxdur.

Ona görə bu amili nəzərə alsaq və azad edilmiş torpaqlarda kənd təsərrüfatının müasir planlı şəkildə ixtisaslaşma əsasında təşkili bizə imkan verəcək ki, oraya qayıdacaq insanlar əkin-biçinlə məşğul olmaqla öz güzəranını özləri təmin edəcəklər, yaxşı vəsait əldə edəcəklər, eyni zamanda, ölkəmizin ərzaqla təminatı və ixrac imkanları böyük dərəcədə artacaq. Məsələn, Kəlbəcər, Laçın, Zəngilan rayonlarında heyvandarlığın çox böyük perspektivləri var və biz vaxt itirmədən artıq ikinci ildir ki, çobanları qoyun sürüləri ilə oraya göndərmişik və bunun nəticəsini görürük. Arıçıları göndərmişik. Artıq Kəlbəcər və Laçın rayonlarında yüzlərlə arıçı öz təsərrüfatını qurub və bol məhsul götürür. Artıq biz bal ixracatçısına çevrilmişik.

Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı rayonlarında taxılçılıq, o cümlədən üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri inkişaf etməlidir. Yəni, dövlət öz tövsiyələrini verəcək. Fermerlərə, oraya qayıdacaq vətəndaşlara həm dəstək göstərəcək, subsidiya verəcək, tövsiyə verəcək, onların yetişdirdikləri məhsulu bazarlara çıxarmaları üçün dəstək olacaq. Bu bölgələrdə - Şərqi Zəngəzur və Qarabağ bölgələrində kənd təsərrüfatının inkişafı, yenə də deyirəm, ən müasir əsaslar üzərində qurulmalıdır. Çünki biz faktiki olaraq işlərə sıfırdan başlayırıq, ona görə səhvə yol verə bilmərik. Vaxtilə Azərbaycanda aparılmış kənd təsərrüfatı islahatı zamanı buraxılan səhvlərə yol verə bilmərik. Hər şey düzgün, şəffaf olmalıdır və əminəm ki, bunun nəticəsində ən böyük məhsuldarlıq məhz işğaldan azad edilmiş torpaqlarda olacaq.Bir sözlə, bax, bu amillər reallıqdır və biz real həyatda yaşayırıq. Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün praktiki işlər aparırıq və aparacağıq. Əminəm ki, növbəti illərdə həm bu gün mövcud olan əkin sahələrində daha bol məhsul götürmək üçün suvarma layihələri, düzgün aqrotexniki tədbirlərin görülməsi və digər tədbirlər, subsidiyalar nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra biləcəyik. Eyni zamanda, biz artıq azad edilmiş torpaqlarda da əkin-biçinlə məşğuluq. Mənim göstərişimlə vaxt itirmədən əkin işləri aparılmışdır, minalardan təmizləmə işləri aparılmışdır. Hesab edirəm ki, gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar, o cümlədən ərzaq təhlükəsizliyimizin tam təmin edilməsində bizə böyük kömək göstərəcək.

## Torpaq sahiblərinə qaytarıldı

Müstəqilliyimizin bərpasından sonra illərlə sovet imperiyasının mənimsədiyi, barbərəkətini daşıyıb apardığı torpaqlarımız 1992-ci ildə ölkəmizdə başlanan torpaq islahatı ilə öz sahiblərinə qaytarıldı. Torpaqların əkilməsi üçün son illər zəhmət adamları üçün hər cür şərait yaradıldı. Onlara subsidiyaların verilməsi, torpaqların vergidən azad olunması, kənd təsərrüfatı məhsullarının sərbəst satışı üçün şəraitin yaradılması, güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi, aqrolizinq xidməti göstərilməsi, kənd təsərrüfatı məhsullarının satışı üçün şəraitin yaradılması və sərbəst ixrac zəhmət adamlarını torpaq mülkiyyətçisinə çevirdi. Bütün bunlar isə illərdir, ölkəmizdə aqrar sahənin inkişafına səbəb olub. Artıq torpaq mülkiyyətçiləri fermer, ailə təsərrüfatları yaradır, zəhmətləri ilə torpağın ən gözəl gəlir mənbəyi olduğunu sübut edirlər.

Qədim əkinçilik mədəniyyətinə malik ölkəmizdə bu ənənənin davam etdirilməsi ən vacib amillərdən biri idi. Çünki bu mədəniyyəti yaşatmağa borclu idik. Bizim ata-babalarımız bu ənənəni yaratmışdılar. Öz çörəklərini torpaqdan çıxarmış, heç kimə ağız açmamışdılar. Biz də onların yolunu davam etdirməli idik. Bu ənənə davam etdirdikcə anladıq ki, torpaq adlı bir nəğmə də varmış. "Bəstəkarı" torpağın özü olan nəğmə. Bu nəğmə torpağa üz tutan insanların ondan nəsibini aldıqları an səslənir. Bağrına sancılan, altındakı xəzinəsini üzə çıxarmaqla zəhmətin nəticəsini gözlər önündə sərgiləyən belin torpağa təmas edən səsindədir bu nəğmə. Traktorların torpağın sinəsində açdığı şırımlarda, toxumsəpən maşınların səpinində, zəmilərin xəfif küləkdən dəniztək dalğalanmasında, bostanlardan, əkin yerlərindən, təsərrüfatlardan sübhdən günbatanadək gələn "əmək sədalarında", kərəntinin, dəyirmanın səsindədir bu nəğmə. Bazarlarımızda bolluq yaradan, alıcını məmnun edən, süfrələri bəzəyən nemətlərimizdədir. Bütün bunları yetişdirən, ona zəhmət sərf edən insanların alın tərindədir bu nəğmə. Bu nəğmənin hər an səslənməsi naminə torpaqlarımızı əkək. Onun bir qarışını belə boş qoymayaq. Çünki torpaq boş qalmağı ondan üz çevirmək kimi dəyərləndirir. Bizimsə ona bu haqsızlığı etməyə haqqımız yoxdur. Çünki torpaq o torpaqdır ki, böyük cəsarətlə "öldür məni, dirildim səni" deyir...

*Mətanət MƏMMƏDOVA*



# Sağlam şəkildə sürətlə necə arıqlamaq olar?

Sağlam şəkildə arıqlamaq üçün istər yavaş-yavaş, istərsə də tez bir zamanda kalori çatışmazlığı formalaşdırmalıyıq. Yəni, insan aldığından daha çox kalori sərf etməlidir. Kalori çatışmazlığı yaratmağın iki yolu var: yemək və idman. Yemək və fitnessi tamamlayan, tez və daimi olaraq arıqlamaq üçün ayrıca seçim olan 3-cü variant da var ki, bu əlavə məşq fəaliyyətidir.Bəs əbədi olaraq arıqlamaq və çəki saxlamaq üçün nə etmək lazımdır? Təəssüf ki, heç bir pəhriz üçün tövsiyələrdə bu qeyd edilmir.Bəs haradan başlamaq lazımdır? İlk növbədə hədəflərinizi müəyyənləşdirərək özünüz üçün arıqlama strategiyası seçmək və bir aydan sonra əldə olunan nəticəyə baxmaq lazımdır.Arıqlamaq üçün kalori qəbulunu necə hesablamaq olar?Bir çox dietoloqlar və nutritionistlər ölçmələrinə əsaslanan düsturlarla işləyirlər. Ancaq belə bir sınaqdan keçmək mümkün deyilsə, ən asan yol müşahidələr vasitəsilə orqanizmini dinləməkdir.Niyə pəhrizlər nəticə vermir və insanlar illərlə idman zalına gedə bilirlər, amma çəki rəqəmləri dəyişmir?Dietoloq Ləman Süleymanova SİA-ya açıqlamasında sağlam şəkildə arıqlamağın sirlərindən danışıb: "İnsan ana bətnində olanda belə ana sağlam qidalanmalıdır ki, dünyaya gələcək körpə də sağlam qidalansın və sağlam formada inkişaf etsin. Hətta Allahın işarəsi var, ana südü insanın qəbul etdiyi ilk qidadır və tərkibi o qədər zəngin maddələrlə doludur. Fikir versək görərik ki, ana südü ilə normal qidalanan körpələr, onların sağlam həyatı, fiziki hərəkətləri çox yüksək dərəcədə inkişaf etmişdir. Bu, ona görədir ki, ana südü fiziki, mənəvi inkişafına təsir edir.Normal inkişafı üçün, düzgün həyat səviyyəsinin ölçməsi üçün bizim qabımız dolmalıdır.Təəssüflər olsun ki, bəzi adamlar müxtəlif pəhrizlərdən, arıqladan dərmanlardan istifadə edir, insan orqanizmə mənfi təsir göstərən və orqanizmə dağıdıcı zərbə vuran arıqladıcı kokteyl, zəhərli çaylar orqanizmə mənfi təsir edən preparatlar qəbul edir. Nədir bəs sağlam qidalanma? Sağlam həyat tərzi sürən insan nə etməlidir? Səhər duran kimi ilk öncə su limitini tənzimləməlidir və səhər yeməyinə başlamalıdır. Səhər yeməyi hər bir insan üçün çox vacibdir. Səhər yeməyi də 7-dən 9-a qədər qəbul etməlidir. Bu orqanizminin və sırf beyin yaxşı işlənməsi üçün vacibdir. Saat 11- dən 1 -ə qədər yüngül qidalara üstünlük verməк məsləhətlidir. Lakin 1-dən başlayaraq 1/2 aralığında günorta yeməyini mütləq qəbul etməlidir. Yaxşı olardı ki, bitki mənşəli və heyvani mənşəli protoin zülalı- ət yeməkləri saat 1-ə, 2-yə qədər təşkil etməlidir. Artıq ağırlaşma başlayanda biz artıq bitki mənşəli yeməklərə, daha rahat həzm olunan qidalardan yararlanmalıyıq. Bunlara tərəvəz şorbaları, bitki mənşəli salatlar daxildir.

Diyetalar müxtəlifdir, qarabaşaq (greçka) pəhrizi, qarpız pəhrizi bunlar insanların başını aldatmaq üçün yalan istifadə olunan qurmalardır. Biz pasiyentlərin reseptlərinə yağlılığı, duzluluğu öz yerində qeyd edirik. Onlar normal sağlam şəkildə qidalandığına bizi sevir. Sağlam arıqlayırlar və sağlam şəkildə çəkilərini qoruyub saxlayırlar. Bir çox yalançı dietalar var ki, ac qalırlar, bütün günü greçka yeyirlər və yaxud heç yemək yemirlər, bu zaman piy parçalanmır, sadəcə, şar kimi boşalır. Şarı necə ki, üfürəndə əvvəlki formaya qayıdır, eləcə də piy öz əvvəlki formasını bərpa edəcəkdir. Bunlara yalançı arıqlama deyilir. Sağlam arıqlama odur ki, insan hər şeyi yeyir, lakin sağlam şəkildə çəki də atır.Piy parçalanmasına təəssüflər olsun ki, Azərbaycanda bir çox dietolog buna düzgün əməl eləmir. Çəki atmaq istəyənlər iki formada olur, sağlam qrup insanlar və qeyri-sağlam qrup insanlar var, hansı ki, o insanların ginetik olaraq quruluşu arıqdır və həmin insanlarda 30 yaşdan sonra dəyişiklik olur, elə xanımlar var ki, ailə qurandan sonra çəki alırlar. Belə insanlar sadəcə normal qidalanmalıdırlar, bəzən isə çoxlu qida, yemək qəbul edən insanlar da olur ki, çəki ala bilmirlər, yoxlayanda görürük ki, ağciyərdə piylənmə gedir. Kökələ bilməyən elə insanlar da var ki, çoxlu enerji sərf edin fiziki hərəkətdə olurlar, lakin yemək az qəbul edir.Diyetoloqlar deyir ki, tərkibində D vitamini olan yumurtaya, balığa üstünlük verilməlidir: "Bununla yanaşı, D vitamini dərman preparatının qəbulu da məsləhətlidir. Eyni zamanda, sink, selen qəbulu tövsiyə olunur ki, bunlar daha çox yumurta, süd, günəbaxan, balqabaq tumundadır. Sink, selenium immun sistemini qoruyur. Qadınlarda saçın tökülməsi də elə sinkin azlığındandır".



Meyvə-tərəvəzlərin qəbulunun da arıqlamada, pəhrizdə xüsusi rolu var: "Gül kələmi, brokkolidə həddən çox vitaminlər var ki, bunlar həm də immun sisteminin bərpasına müsbət təsir edir. Ümumiyyətlə, arıqlamaq istəyənlər elə pəhriz saxlamalıdırlar ki, onlarda aclıq hissi yaranmasın. Yəni şəxsin gözü ac olmasın". Şirniyyatın kökəlməyə təsirindən danışan diyetoloq deyir ki, qadınların xüsusi günlərində şirniyyat yeməsi qəbu-



ledilləndir: "Bu dönəmdə 20-30 qram şirniyyat yemək olar. Bu zaman təmiz, keyfiyyətli, 75-80 faizlik şokoladlar yemək olar".

Məşqçi və idman ustası Zemfira Ələkbərli isə arıqlmaq üçün ilk növbədə düzgün rejim qurmaq lazım olduğunu bildirir. Bunlara həm qidalanmağımız, həm yuxu rejimimiz, həm də idmanımız daxildir. Bunların üçü də bir- birinə bağlıdır.Biz düzgün qidalanmasaq, pəhrizimizi düzgün saxlamasaq istədiymiz nəticəni gec əldə edərik. Fitness ve Crossfit idman növü ilə məşğul olduğunuz zaman həm də dediyim kimi, pəhriz saxladığınız zaman və düzgün təlimçi ilə birlikdə arıqlaya bilərsiniz. Əsasən xanımlar daha tez nəticə əldə etmək istəyirlər. Yalnız bir az səbrli olmaq lazımdır. Sağlam şəkildə arıqlamaq üçün davamlı olaraq məşqlər etmək və qidalanmağınıza fikir verdiyiniz zaman bu mümkündür. Yalnız bir az səbrli, həvəslə məşq etmək lazımdır. Bunu bir ilk növbədə, sağlamlıq kimi düşünmək lazımdır. Çünki idman sağlamlıqdır.Həm idman, həm pəhriz, ikisi bir yerdə olmalıdır, bunlar bir-biri ilə bağlıdır və tamamlanmalıdır.Ev şəraitində arıqlama üçün yalnız qidalanmağınıza fikir versəniz, artıq çəkidən azad olmaq olar. Amma idman bizim bədənimizi formada qalmağına kömək edir".

***Havar Şəfiyeva***

# Fala inanmaq günahdır? - İZAH EDİLDİ





“Allah insana həyatda yaşama istiqamətini təyin etmək üçün müqəddəs Qurani-Kərimi nazil edib. Quran Allah tərəfindən peyğəmbərlərə göndərilib. İsa peyğəmbərə ”İncil”, Musa peyğəmbərə ”Tövrat” və s. Sonuncu kitab Qurani-Kərimdir. Bu kitab toplum olaraq kompleksdir. Yəni, bütün müqəddəs kitabları özündə ehtiva edir və onların təhrif olunmasını göstərir. Qurani-Kərimə qədər olan kitablar təhrif olunub. Müqəddəs Quran isə onlardan da xəbər verir və bizi düzgün istiqamətləndirir”. Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib.Onun sözlərinə görə, Qurani-Kərimin Maidə surəsinin 90-cı ayəsində fal oxları barəsində bir neçə haramlar qeyd edilir: ”Peyğəmbər zamanı və dövrlərində Ərəbistan yarımadasında yaşayan insanlar haramlardan və fal oxlarından istifadə edərək fala baxardılar. Fala baxanlar müəyyən xəbərləri qabaqcadan təyin edərdilər. Bu, müqəddəs Quranda xüsusi şəkildə qadağan edilmiş və haram buyurulmuşdur.Bu gün fala baxan tanınmış insanlar var. Onlar bu sahədə öz batil mütəxəssislərini yetişdiriblər. Bizdə bunu İslam qadağan etsə də, hələ də mövcuddur. Bu, batil və günahdır. Allah Qurani-Kərimdə də buyurub ki, ”Qabaqcadan bir çox şeylərin bilinməsi Allaha aiddir. İnsan oğlunun elə şansı və imkanı yoxdur ki, qeybdən xəbər versin”.Burada bir incə nüans var. İnsanlar elmə yiyələnə bilər və öz elmi bilikləri əsasında müəyyən proqnozlar verə bilərlər. Məsələn, snoptiklər hava cərəyanlarını öyrənirlər və onların vasitəsilə qabaqcadan hava haqqında məlumat verirlər. Bu, elmi əsasda təyin olunub. Amma bir adam evində otursun və elmdən kənar özündən desin ki, ”Mənə vergi verilib”, ”Mən biliciyəm” və s. düzgün deyil. Bu, günahdır.Bu şəxslər insanları qorxuya və şübhəyə salırlar. İnsan da zəif olduğu üçün yanlışlıqlara addım atmır. Dinimiz belə insanların yanına getməyi və onlara inanmağı buyurmur. İnsan Allaha sığınmalıdır”.Fuad Nurullayev sözlərinə belə davam edib: ”İnsan dua edir və Allahdan istəyir. Əgər istədiyi ona gec çatırsa və yaxud da çatmırsa yenə də düşünsün ki, ”Allah bunu mənə nəsib etmirsə, burada da Allahın mərhəməti və rəhmi var. Yəni xeyirli olmadığı üçün Allah bunu mənə nəsib etmədi. İnsan düşünməsin ki, hər istədiyini Allah ona verməlidir.İnsan seçim qarşısında və çətin vəziyyətdə qalarsa, Qurana üz tutmalıdır. Quran bilənə və savadlı insana müraciət etmək lazımdır. Bu, istisna haldır.Falçı yanına getmək insanı Allaha olan imanından ayırır. İnsan pis gözdən, bəd nəzərdən qorunmaq istəyirsə, Qurani-Kərimin surə və ayələrinə nəzər yetirsin. Bunlar həmin insanı qoruyar”.

*Ayşən Vəli*

# Magistraturaların boş qalan yerlərinə ixtisaslaşma seçimi yekunlaşır

2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarının boş qalan yerlərinə qəbul olmaq üçün ixtisaslaşma seçimi bu gün yekunlaşır. SİA Dövlət İmtahan Mərkəzinin saytına istinadla xəbər verir ki, bu gün saat 16:35-ə olan məlumata görə, 1741 nəfər (Azərbaycan bölməsi - 1663, rus bölməsi - 78) ərizəsini təsdiq edib.

Boş qalan yerlərə qəbul fevralın 20-də və mayın 29-da keçirilmiş qəbul imtahanının birinci və ya ikinci cəhdində toplanılmış ballar əsasında müsabiqə yolu ilə aparılır. Boş qalmış ixtisaslaşmaların seçiminə magistraturaya qəbul imtahanının birinci və ya ikinci cəhdinin (bəzi proqramlar üzrə həmçinin qabiliyyət imtahanının) nəticələrinə əsasən, müəyyən edilmiş minimal tələbləri ödəyən və ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanan bakalavrlar buraxılırlar.

Həmin bakalavrlar boş qalan yerlərə keçirilən müsabiqədə iştirak etmək üçün 14 avqust saat 23:59-dək DİM-in internet saytının müvafiq səhifəsinə daxil olaraq seçdikləri ixtisaslaşmaların kodlarını ”Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi”ndə qeyd edib təsdiqləməlidirlər.

Bakalavrlar öz istəklərinə görə ixtisaslaşma seçimində və müsabiqədə imtahanın hər hansı bir cəhdində göstərdikləri nəticə (topladıqları bal) əsasında iştirak edə bilərlər. Hər iki imtahan nəticəsi müsabiqə şərtini ödəyən bakalavrlar müsabiqədə iştirak etmək istədikləri imtahan nəticəsini seçirlər.

İxtisaslaşma seçimi aparılan müddətdə bakalavr bitirdiyi ixtisasa müvafiq və istəyinə uyğun olan proqram(lar)ı və həmin proqram(lar)a aid olan 20-dək boş qalmış ixtisaslaşmanın kodunu seçərək ”Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi”nə istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir. Seçilən bütün ixtisaslaşmalar seçim cədvəlinə əsasən bakalavrın bitirdiyi ixtisasa görə seçmək hüququ olan bir və ya daha çox sayda qəbul proqramına aid ola bilər.



İLHAM

# Şəkinin Karvansaray və Xan sarayındakı ”oğurluq”lar dəhşət yaradır

5 min illik dövlətçilik tarixinə malik Azərbaycanda çoxsaylı tarixi binalar, qalalar, abidələr, ziyarətgahlar, karvansaraylar mövcuddur. Ölkəmizə gələn hər bir xarici turist gördüyü və seyr etdiyi tarixi məkanlara öz heyranlığını, vurğunluğunu gizlədə bilmir. Yəni, ölkəmizə gələn hər bir əcnəbi təkrar olaraq bu yerləri ziyarət etməyə gəlir. Yerli və xarici arxeoloqların birgə apardıqları tədqiqatlar nəticəsində sübuta yetirilib ki, Azərbaycan dünyanın ən qədim insan məskənlərindəndir. Damcılı, Daşsalahlı, Tağlar, Azıx və Qazma mağaralarında o cümlədən, 300-400 min il bundan əvvəl yaşamış Azıx adamının çənə sümüyü Azərbaycanın ibtidai insanların formalaşdıqları ərazilərdir. Məhz bu kimi tədqiqatlar nəticəsində Azərbaycanın ərazisi ”Avropanın ən qədim sakinləri” xəritəsinə daxil edilib. Demək olar ki, Azərbaycanın hər bir daşında, qayasında bir tarix yatır. Belə sirli, sehirli tarixi məkanlardan biri də, Azərbaycanın ən qədim sənətkarlıq və ticarət şəhəri olan qədim Şəki şəhəridir. Füsunkar təbiəti, gözəl məkanları, qədim qalaları ilə məşhur olan Şəki eləcə də, tarixi karvansarayları ilə də digər tarixi ərazilərdən fərqlənir. Təəssüf ki, böyüklüyünə görə bütün Qafqazda məşhur olan Yuxarı Karvansaray və Aşağı Karvansaray kompleksləri işbazların oylağına çevrilib. Özü də alan da bəlli, satan da bəlli, qiymət siyasətini müəyyənləşdirib, ciblərini dolduranlar da bəllidir. Ancaq orada olub, insanlarla balaca bir sorğu apararkən eşitdiyimiz o oldu ki, iaşə qiymətlərinin həddindən artıq baha olmasına görə, bir il səkkiz aydır ki, günahkar axtarırlar. Yəni, ziyarətçilərin deməsindən belə çıxırdı ki, sanki Şəki Karvansaray kompleksində yiyəsizlik hökm sürür. Xaliq, Mahir və Bəsdi adında şəhər sakinlərinin deməsinə görə, Karvansaray və Xan Saray kompleksləri Şəki şəhər icra hakimiyyətinin başçısının nəzarətindədir. Hətta danışılanlara görə, Karvansarayda restoranda ofisianların işə qəbuluna belə başçı razılıq verməlidir. Qiymətlərə gəlincə isə, əgər bir anlığa tarixə qayıdış mümkün olsa idi, elə qiymətləri karvanların yük yerinə yerləşdirib, Sarvanları vasitəsi ilə ən azı Azərbaycan sərhədlərindən kənara çıxarardıq, qapı, pəncərəni də bağlayardıq ki, karvan üstündə gedən, fantastik qiymətlərin geri dönüşü mümkün olmasın. Ancaq nə fayda ki, tarixin təkərini geri döndərmək mümük olmadığı kimi, qədim Karvansarayda və adını UNESCO-nun mədəni irs siyahısına yazdıran Xan Sarayında fəaliyyət göstərən restoranlarda at oynadan, cib yandıran qiymətlərə də müdaxilə etmək mümkünsüzdür.

Nə badə, ürəyindən keçirəsən ki, yeyib-içmək mümkün olmadığı halda, heç olmasa, çay süfrəsi arxasında, əyləşib, Karvansaray divarlarına baxıb, gözəllikdən feyziyab olum, bu da mümkünsüzdür. Birincisi, Karvansarayın arxasındakı yeyib-içmək məclisi olan restorana yalnız lülə, tikə, balıq kababı yeyənlər buraxılırlar. Əgər ”mən çay içmək istəyirəm”, desən, o zaman bir zaman fağır-füğarın Karvansaraya alış-veriş üçün gəldiyi hücrələri göstərəcəklər ki, bu da yayın istisində, göz görəsi, özünü fəlakət burulğanına atmaq deməkdir. İkincisi də, biabırçılıq ondan ibarətdir ki, hücrələrdə belə maya dəyəri 36 qəpik olan bir çaynik çayın qiyməti 25 manata təklif olunur. Etiraz etməyə nə haqqın, nə də hüququn var. Bir də ki, kimə şikayət edəsən, kimdən haqq-ədalət tələb edəsən və ya cəsarət edib, kimin yaxasından tutub, ”xahiş edirəm, aztəminatlı insanları da nəzərə alın, qiymətlərə bir əncam çəkin” deyəsən. Hələ ki, səsini çatdırmaq, sözünü demək istədiyin ünvan yoxdur. Şəki şəhər icra hakimiyyətinin başçısının bu məsələdə əsas rol oynayan şəxs olduğu deyilsə də, onunla, heç icra hakimiyyətinin əməkdaşları görüşə bilmir, o ki qala hansısa kənardan azıb-təzib, şəhərə gəlmiş hansısa turist ola. Karvansarayda və Xan sarayında cibəgirmə əməliyyatları isə davam edir. Bəli, bəli, bu məkanlarda ”oğurluq” halları baş verir. Saf və təmiz oxucum, heç də təəccüblənməyin. Əgər bir oğru, özgəsinin əmlakını ələ keçirmək üçün kiminsə evinə girib oğurluq edirsə, restoranlarda da eynilə şişirtmə qiymətlərlə ciblərə əllərini salıb oğurluq edirlər. Sadəcə, oğru evə gecə vaxtı gizlincə daxil olub, pul, qızıl oğurlayırsa, restoran biznesini idarə edənlər cibə günün günorta vaxtı, qanunlaşdırdığı formada oğurluq edirlər. Amma dini qanunlara görə, hər ikisinin adı özgəsinin əmlakına sahiblənməkdir, yəni, oğurluq.

Mətbuatda yazılanlara əsasən demək olar ki, tarixi tikililərin idarə olunması, lazım gələndə restoran və bar kimi icarəyə verilməsi işinə Dövlət Turizm Agentliyi baxır. Olsun, bəlkə də eladır. Ancaq bu qurumun nə işə baxdığını, açığını mən bilmirəm, hesab edirəm ki, Azərbaycan cəmiyyətində bilən də yoxdur. Bu yaxınlarda səs yayılmışdı ki, Şəki Karvansaray kompleksi bağlanır. Hətta dedi-qodu yayan ağzı göyçəklər sosial şəbəkələrdə paylaşım etmişdilər ki, guya tarixi tikili özəlləşdiriləcək. O zaman hamı kimi mən də bu xəbərdən dəhşətə gəlmişdim, ”olamaz” demişdim. Nə məsələdirsə, bu kimi dezinformasiyalardan əndişələnən Turizm Agentliyinin başbilənləri tez-tələsik agentliyin mətbuat katibinin dilindən Karvansarayın bağlanacağı ilə bağlı məlumatların yanlış olduğunu bildirdi. Sözçü açıqlama verdi ki, heç kim narahat olmasın, təşviş də keçirməsinlər, sadəcə, mehmanxananı bir şirkətin əlindən alıb, başqa bir şirkətin idarə edilməsinə veriblər. Sual etsən ki, Karvansaraydakı restoranlarda qiymətlər niyə həddindən artıq bahadır, agentliyin, ancaq və ancaq Polşa kostyumları geyinən mətbuat katibi deyəcək ki, ”qiymətlər bizlik deyil, o kimi məsələlərə restoranı işlədən sahibkarın insafına buraxılıb”. Dönüb restoran sahibinə ”axı niyə belə edirsiniz” sualını ünvanlasanız, o da çiyinlərini çəkib, ”boynuma haqqı çox yükləyiblər, mən də qiymətləri ceyran belinə qaldırmağa məcbur olmuşam” deyəcək. Beləcə ötür-ötür oyunu uzanacaq. Bu baxımdan sən də ”cəhənnəm olsunlar” deyib, Karvansaraya, Xan sarayına, eləcə də digər bahalı məkanlara, tarixi tikililərə getməkdən imtina edirsən. Yəni, gücün ancaq buna çatır. Mənim də gücüm rastlaşdığım rüsvayçılığı qələmə alıb, bir daha məsələni başbilənlərin nəzərinə çatdırmaq oldu. Baxmayaraq ki, məsələni ictimailəşdirməklə nəticə hasil olacağına inamsızlığım var. Çünki insafı-mürvəti olmayan məxluqdan ictimai qınaqla ədalətli mövqe sərgiləyəcəyi mümkünsüz görünür.

# COVID-19
## pandemiyasının yaratdığı həyati təhlükə

COVID-19 pandemiyası müasir dünyamızı narahat edən məsələ olaraq qalmaqdadır. Hər dəfə virusla vidalaşacağımızı düşünsək də, əfsuslar olsun ki, yeni dalğası gələrək cəmiyyətdə qeyri-ixtiyari olaraq narahatçılıq doğurur. Əgər yaxın aylarda yoluxma sayının Azərbaycanda 5-10 nəfər arasında olduğunu görürdüksə, bu gün bu üç rəqəmli arasında, dəyişir. İki ildən artıq bir zamanda rəqəmlərin dəyişkən olması, yoluxma sayının azalması və artması bizə bəllidir. Hər an təhlükə saçan bu virusla bir həyatda yaşamaq məcburiyyətindəyik. 2019-cu ilin dekabrında Çində başlayan Covid-19 pandemiyası qısa bir zamanda Azərbaycanın çağırılmamış qonağına çevrildi.Bu gün dünyada koronavirusa yoluxma hallarının təsdiqlənmiş sayı 580 milyonu, bu xəstəlikdən ölənlərin sayı isə 6,41 milyonu ötüb. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına istinadən, yoluxma sayında 500 milyonluq hədd aprelin 14-də, 400 milyonluq hədd - fevralın 10-da, 300 milyonluq hədd - yanvarın 8-də, 200 milyonluq hədd isə keçən il avqustun 5-də qeydə alınıb. Məlumatları ÜST-ə daxil olan ən çox təsdiqlənmiş yoluxma halı - 90 706 508 ABŞ-da qeydə alınıb. Daha sonra Hindistan (44 161 899), Braziliya (33 924 061), Fransa (33 061 414) və Almaniya (31 228 322) yer alıblar. Ən çox ölüm halı da - 1 021 995 ABŞ-da qeydə alınıb.Koronavirusun dünyada geniş vüsət aldığı bir zamanda Azərbaycanda tətbiq edilmiş karantin rejimi qaydalarına lazımı səviyyədə əməl olundu. Belə ki, maskadan lazımı, tələb olunan şəkildə istifadə olundu, sosial məsafə gözlənildi, qapanmalar tədbiq edildi, ictimai nəqliyyatdan istifadə zamanı bütün tələblərə riayət olundu və s. qabaqlayıcı tədbirlər Azərbaycanın bu sahə də nümunəvi ölkə olduğunu təsdiqlədi. Dünyada koronavirus pandemiyasının tüğyan etdiyi ilk gündən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirus - COVID-19 pandemiyasının geniş şəkildə insanlar arasında yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən zəruri qabaqlayıcı tədbirlər Azərbaycanda bu xəstəliyin geniş yayılmasının qarşısını almış oldu. Pandemiya ilə mübarizə üçün zəruri infrastruktur yaradılması, bütün texniki-təşkilati məsələlər uğurla həllini tapmış oldu.Beynəlxalq təcrübəni və mövcud elmi araşdırmaların nəticələrini nəzərə alaraq, SARS-CoV-2 PZR test nəticəsi "müsbət" olan şəxslərin və onların müəyyən olunmuş "sıx təmaslı"larının təcrid (karantin) müddəti ölkəmizdə 24 yanvar 2022-ci il tarixindən etibarən 14 gündən 7 günə azaldıldı. Yaxın zamanlarda "Omikron" ştammının yüksək dərəcədə yoluxucu alt növlərinin yayılması fonunda Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-a qarşı Qlobal Vaksinasiya Strategiyasının yenilənmiş versiyasını dərc etməsi artıq yenidən dünyamızı narahat etməyə başladı.



COVID-19 virusunun yeni mutasiyalarının meydana çıxması ilə onun klinik mənzərəsi çox da dəyişməyib. Mütəxəssislərin qənaətinə görə, bu, qızdırma, zəiflik, baş ağrıları və əzələ ağrısı, qarın ağrısı və ishaldır. Əlbəttə ki, bütün dünyada geniş yayılan koronavirusa qarşı mübarizədə immuniteti gücləndirən qidalara üstünlük vermək vacibdir.Bu günlərdə Avropa İttifaqının və Ümumdünya Səhiyyə Təşkilatının birgə layihəsi olan COVID-19 əleyhinə Vaksinasiyaya dəstək layihəsi çərçivəsində görülən işlər üzrə məlumat vərəqəsi təqdim edilib. Layihə çərçivəsində COVID-19 pandemiyası ilə mübarizə və rutin immunlaşdırma tədbirlərinin gücləndirilməsi məqsədilə müxtəlif istiqamətlərdə milli səhiyyə tərəfdaşlarına texniki dəstək göstərilir. Bu məqsədlə 1800 vaksinator, 2 min 900 həkim və tibb işçisi, habelə tibb kolleclərinin müəllimləri vasitəsilə 3 mindən artıq tibb tələbəsinə COVID-19 peyvəndləri ilə bağlı ən son məlumatlar çatdırılıb. Qısa müddət ərzində "OpenWHO" onlayn təlim platformasında azərbaycanlı tibb işçiləri tərəfindən qeydiyyatdan keçilən kursların sayı 10 dəfə artaraq 18 minə çatıb.Layihənin həyata keçirildiyi ilk ildə 300 peyvənd soyuducusu, enerji stabilizatoru və temperatur monitorinqini təmin edən cihaz, o cümlədən 122 peyvənd daşıyıcısı, 102 kompüter, 79 printer və 79 enerji qaynağı cihazı (UPS) milli tərəfdaşlara təhvil verilib. Eyni zamanda, infeksiyanın qarşısının alınması və nəzarət mexanizminin gücləndirilməsi məqsədilə bölgələrdə yerləşən səkkiz peyvəndləmə məntəqəsində dəyərləndirmə aparılaraq müvafiq tövsiyələr verilib.Əlbəttə ki, həmişə vurğulandığı kimi, koronavirusdan qorunmağın əsas yollarından biri vaksinasiya olunmaqdır. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqelərdədir. Xatırladaq ki, ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində aparılır. Vaksinasiya zamanı "CoronaVac", "Vaxzevria", "Sputnic V", "Pfizer", "Sinovac" kimi peyvəndlərdən istifadə olunub. Statistika göstərir ki, COVID-19 testi pozitiv olanların 90 faizindən çoxu peyvənd olunmamış şəxslərdir. Mütəxəssislərin fikrincə, elmi araşdırmaların nəticələrinə əsasən müəyyən olunub ki, peyvəndləndikdən sonra virusa yoluxan şəxslərdə virus yükü əhəmiyyətli dərəcədə aşağı olub. Virus yükü aşağı olduğu üçün həmin şəxslərin əksəriyyəti çox yüngül simptomlarla olub və ya yoluxduqlarından xəbərsiz olublar. Odur ki, vətəndaşların vaksinasiyası zəruridir.Azərbaycanda bu günə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 839 min 106, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 370 min 143, ikinci mərhələ üzrə 4 milyon 859 min 674, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 352 min 155, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 257 min 134-dür.

Bu gün isə meymunçiçəyi xəstəliyi dünya ölkələrinin bir çoxunda baş qaldırıb. Avropa ölkələrində ilkin diaqnozlar aşkarlanıb. Xəstəliyin bir neçə müxtəlif tipi var. Hazırda ölkədə önəmli bir təhlükə yoxdur. Xəstəlik ABŞ, Böyük Britaniya və İspaniya da daxil olmaqla 60-dan artıq ölkəyə yayılıb. Lakin, tədqiqatçıların fikrincə, bu xəstəliyin Afrika qitəsi ilə təkidlə əlaqələndirilməsi qitə əhalisinə münasibətdə ayrı-seçkilik xarakteri daşıyır.

Odur ki, pandemiyanın tamamən bitmədiyini bilməliyik. Əllərin yuyulması, tənəffüs gigiyenası kimi öyrəndiyimiz bütün qoruyucu tədbirləri davam etdirməyimiz lazımdır. Bundan əlavə, yaşı əllidən yuxarı olan peyvənd vurdurmayan vətəndaşların vaksinasiyadan keçməsi önəmlidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

# "Kütləvi köç Ermənistanda demoqrafik böhrana səbəb olur" - POLİTOLOQ AÇIQLADI

"Post-müharibə dövründə Ermənistanda davam edən siyasi böhran sosial-iqtisadi vəziyyəti ağırlaşdıran əsas faktorlardan birinə çevrilib". Bu sözləri SİA-ya açıqlamasında politoloq Aytən Qurbanova deyib.Onun sözlərinə görə, İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra cəmiyyətdə yaranmış xaos və qarşıdurmaların fonunda təbii olaraq əhalinin bir qismi post-müharibə dövrünün reallıqlarını dəyişə bilməyəcəklərini artıq anlamağa başlayıblar: "Ona görə də, son zamanlarda kütləvi köç halları daha da artaraq davam etməkdədir. Görünən odur ki, xüsusilə gənc və orta nəslin nümayəndələrinin başqa ölkələrə kütləvi köçü yaxın onilliklərdə Ermənistanda demoqrafik böhranın daha da dərinləşməsi ilə paralel olaraq cəmiyyəti bir çox istiqamətdə iflic edəcək təhdidləri də özündə ehtiva edir".



***Arzu Qurbanlı***

---

# Azərbaycan sərhədini pozmaq istəyən şəxslər saxlanılıb

Avqust ayının 12-də saat 22:00 radələrində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Dövlət Sərhəd Xidmətinin "Horadiz" sərhəd dəstəsinin, Füzuli rayonunun Böyük-Bəhmənli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının arxa istiqamətində şübhəli şəxs qismində 10 nəfər Şri-Lanka Demokratik Sosialist Respublikası vətəndaşı saxlanılıb.Bu barədə SİA-ya Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzindən məlumat verilib.Aparılan ilkin araşdırma zamanı qeyd olunan əcnəbilərin 25-i və 29-u iyul tarixlərdə ölkə ərazisinə turist qismində rəsmi qaydada gəlmələri, İran vətəndaşı Əlirza adlı şəxsin bələdçiliyi ilə dövlət sərhədini pozaraq Azərbaycandan İran İslam Respublikasına, oradan isə Türkiyəyə keçməklə, Avropa ölkələrindən birinə miqrasiya etmək niyyətində olmaları müəyyənləşdirilib.Fakt üzrə qeyri-leqal miqrasiya kanalının aşkarlanaraq zərərsizləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.



# Rus politoloq: Erməni silahlıları istənilən yolla Qarabağdan çıxarılmalıdır

**İqor Korotçenko: Azərbaycan öz hərbçilərinin öldürülməsinə imkan verməyəcək və Ermənistan tərəfinin diplomatik dili başa düşmədiyi təqdirdə adekvat cavab verəcək**



Bu günlərdə Azərbaycanın İsmayıllı rayonuna səfər edən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin ”Qisas” əməliyyatından sonra yüzlərlə erməni hərbçisinin Qarabağ bölgəsindən çıxarıldığını bildirib.”Bu, təəssüf ki, belə əməliyyatların effektiv olduğunu göstərir. ”Təəssüf ki” deyirəm, çünki bunu bu yerə çatdırmaq lazım deyildi. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Niyə bizim uşaqlarımız müharibədən sonra ölməlidir? Ermənilər niyə onları öldürməlidirlər? Biz buna icazə verə bilmərik... biz yeni müharibəyə başlamaq niyyətində deyilik. Yetər. İstədiyimizə nail olduq. Biz erməni silahlı birləşmələrinin Qarabağı birdəfəlik tərk etməsini istəyirik. Bu, Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı təslim aktında təsbit olunmuş öhdəliyidir, biz buna nail olacağıq”, - İlham Əliyev bildirib.Xatırladaq ki, avqustun 3-də Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələri tərəfindən Laçın rayonu istiqamətində Azərbaycan mövqelərini atəşə tutması nəticəsində hərbçisi həlak olduqdan sonra Azərbaycan Silahlı Qüvvələri müvafiq əməliyyat keçirib.Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Ermənistan-Azərbaycan həlli ilə bağlı üçtərəfli bəyanat imzalamasından keçən bütün dövr ərzində rəsmi Bakı müntəzəm olaraq belə bir məsələ qaldırır ki, üçtərəfli sənədin Ermənistan silahlı qüvvələrinin Qarabağdan çıxarılmasına dair bəndi yerinə yetirilməmişdir ki, bu da regional təhlükəsizliyə təhdiddir. Axı bu birləşmələrin nümayəndələri dəfələrlə təxribatlar törədiblər. Milli Müdafiə jurnalının baş redaktoru İqor Korotçenko ”Moskva-Bakı” portalına müsahibəsində baş vermiş hadisələri şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Qarabağdan çıxarılmayan qeyri-qanuni erməni silahlı birləşmələri mövzusu artıq özünün ən kəskin həddinə çatır... Bu vəziyyət artıq bütün həddi aşıb.***

- Bütün son hadisələr, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Ermənistan-Azərbaycan nizamlanmasına dair üçtərəfli bəyanatı imzalamasından təxminən 2 il sonra Qarabağda hələ də qalan qanunsuz erməni silahlı birləşmələrinin müntəzəm təxribatları Ermənistanın bütün qanunsuz silahlı birləşmələrinin Azərbaycanın Qarabağ iqtisadi rayonu ərazisindən tezliklə çıxarılmasını şərtləndirir. Rəsmi Bakı bu kəskin problemi əvvəllər də mütəmadi olaraq gündəmə gətirib və Azərbaycan əsgərlərinə qarşı təxribat törədilməsi və onların həlak olması Azərbaycan ərazisində silahlı ermənilərin daimi təxribat mənbəyi, sülh üçün təhlükə mənbəyi olduğunu bir daha göstərdi. Xüsusilə, İkinci Qarabağ müharibəsinin başlanmasının növbəti ildönümü ərəfəsində bu vəziyyətin davam etməsi normal sayıla bilməz. Silahlı ermənilər Qarabağ ərazisindən çıxarılmadan prinsipial olaraq sülh yolu ilə nizamlanmada hər hansı irəliləyişdən söhbət gedə bilməz.

Biz gözləyirik ki, Moskva və Bakı birgə siyasi hərəkətlərlə Paşinyan hökumətinə lazımi təzyiqləri göstərəcək ki, onu İrəvanın üçtərəfli bəyanat üzrə ən mühüm öhdəliklərindən birini - silahlı birləşmələrin çıxarılmasını yerinə yetirməyə məcbur etsin. Əks halda, bütün bu təxribatlar sonsuz olaraq təkrarlanacaq. Azərbaycan təbii ki, onları passiv şəkildə müşahidə edə bilməz və gördüyümüz kimi etməyəcək də. Ona görə də ”Qisas əməliyyatı” çərçivəsində müvafiq cavab verildi. Və bundan sonra hər bir təxribatın ardınca birmənalı şəkildə sərt cavab veriləcək. Azərbaycan bu cür taktikanı həyata keçirərək, tamamilə qanuni, beynəlxalq hüquq çərçivəsində hərəkət edir.

Biz yaxşı bilirik ki, Azərbaycan Qarabağda separatçıların nəzarətində olan əraziləri orada qalan, regionda təhlükəsizliyə təhdid olan qanunsuz silahlı erməni birləşmələrindən tezliklə təmizləyə bilər. Amma Azərbaycan hələ də bu mövqedən çıxış edir ki, məsələ mümkün qədər diplomatiya yolu ilə həll olunmalıdır. İlham Əliyev Rusiya və Ermənistan liderləri ilə üçtərəfli bəyanat imzalayıb və ona aydın şəkildə əməl edir, Azərbaycan prezidenti sözünün üstündə durur. Amma bunu Ermənistan haqqında demək mümkün deyil.

Azərbaycan öz hərbçilərinin öldürülməsinə imkan verməyəcək və Ermənistan tərəfinin diplomatik dili başa düşmədiyi təqdirdə adekvat cavab verəcək. Azərbaycan imzalanmış üçtərəfli bəyanatı məsuliyyətlə yerinə yetirən məsuliyyətli ölkədir. Ona görə də, ilk növbədə diplomatik vasitə və üsullarla hesablama aparılır. Moskva isə bunu başa düşür. Rusiya və Azərbaycan Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzalayıblar. Vladimir Putinlə İlham Əliyev arasında şəxsi razılaşmalar var, onların bəziləri açıq-aşkar deyil. Biz Azərbaycan Prezidentinin simasında sözünün məsuliyyətini daşıyan, üzərinə düşən bütün öhdəlikləri yerinə yetirən siyasətçi görürük. Bizim üçün Azərbaycan etibarlı, proqnozlaşdırıla bilən strateji tərəfdaş və müttəfiqdir. Əvvəllər də belə idi, indi də beynəlxalq münasibətlərin çox çətin dövründə belədir.

***- Niyə Ermənistan birləşmələrin çıxarılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri hələ də yerinə yetirməyib?***

- Başa düşmək lazımdır ki, Qarabağdakı erməni separatçıları böyük ölçüdə öz təhlükə və riskləri ilə hərəkət edir, təxribatlar törədirlər. Bu, yalnız İrəvanın əlinə oynayır. Xaricdəki erməni diasporları İrəvana, erməni separatçılarına təsir göstərməyə çalışırlar. Üstəlik, siyasi cəhətdən sağ qalmağa can atan Paşinyan tez-tez, necə deyərlər, küləyin əsdiyi mövqeni tutur. Ona görə də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində hərəkət etmək məsələsində Ermənistan hakimiyyətinin siyasi təzyiqi olmadan gedə bilməz...

Azərbaycan artıq Laçın dəhlizinə alternativ yol çəkib, Zəngəzur dəhlizinin özünə məxsus hissəsini tikir, İran ərazisindən Naxçıvana yol çəkir. Bu halda təbii ki, Azərbaycan Ermənistanın öhdəliklərinə uyğun olaraq nə etdiyini soruşacaq. Heç bir şey etməsə, bu onun problemi olacaq. Azərbaycan Ermənistanı konstruktiv mövqe tutmağa məcbur etmək üçün siyasi-diplomatik və zor üsullarından istifadə etməlidir. Açığını deyim ki, Bakının bu siyasəti Rusiya tərəfindən dəstəklənir. Cənubi Qafqazda vəziyyətin potensial gərginləşməsi ilə bağlı baş ağrısı bizə qətiyyən lazım deyil, xüsusən indi. Biz başa düşürük ki, bu istiqamətdə Azərbaycanla tam sinxronizasiyamız var. Amma Ermənistanla bir sıra məsələləri çox vaxt, necə deyərlər, kampaniya yolu ilə həll etmək lazımdır. Biz sadəcə olaraq Paşinyanı lazım olanı etməyə məcbur edəcək hərəkətlərin məntiqindən çıxış edəcəyik.

***- Rusiya sülhməramlılarının Qarabağda qalma müddətinin bitməsinə 3 il qalıb. Ermənistan da öz növbəsində üçtərəfli sazişlərin icrasına mane olmaqda davam edərsə, nə baş verəcək?***

- Beş illik müddət başa çatdıqdan sonra Rusiya sülhməramlılarının regionda qalıb-qalmaması gələcək razılaşmaların mövzusudur. Hələlik hər hansı qiymətləndirmə və proqnoz verməkdən çəkinərdim, axı bu, ilk növbədə dövlət başçılarının, ilk növbədə, İlham Əliyevin və Vladimir Putinin səlahiyyətindədir. Aydındır ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin əvvəlki bütün razılaşmalarını inkişaf etdirən, bir sıra məqamları təfərrüatlandıran yol xəritəsi lazımdır. Ermənistan sadəcə olaraq çox şey etməyə məcburdur. Ona görə də dövlət başçıları tərəfindən imzalanacaq və 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda olduğu kimi, vaxt baxımından aydın şəkildə göstəriləcək bir yol xəritəsi lazımdır ki, ermənilər filan tarixdə oradan çıxmalıdırlar və s.

Hesab edirəm ki, Putin, Əliyev və Paşinyan arasında ola bilsin ki, ekspert icmasının iştirakı ilə keçiriləcək görüşdə qeyri-qanuni silahlı erməni birləşmələrinin necə çıxarılacağı, erməni separatçılarının nəzarətində olan ərazilərin Azərbaycanın nəzarətinə necə geri qaytarılacağı ilə bağlı təkliflər hazırlanmalıdır. Bu məsələni uzatmaq olmaz. Əslində, prosesi siyasi iradə müəyyən edir. Rusiya və Azərbaycan tərəfdən bu var, Ermənistan tərəfdən yox. 2022-ci il noyabrın 10-dək qanunsuz erməni silahlı birləşmələrinin Azərbaycanın Qarabağ iqtisadi rayonu ərazisindən yekun çıxarılması prosesini başa çatdırmaq lazımdır. Bu, mütləq lazımdır, bu, birinci dərəcəli prioritetdir.

***- Laçının və bir sıra ona bitişik kəndlərin erməni əhalisi avqustun 25-dək bu yaşayış məntəqələrini tərk etməlidir. Artıq 2020-ci ildəki kimi necə qalmaqal çıxarıb evləri yandırdıqlarını görürük. Eyni zamanda, son həftələrdə bir neçə etnik erməni Azərbaycan vətəndaşlığını almaq istəkləri ilə bağlı ictimaiyyətə açıqlamalar verib. Bu cür bir-birinə əks şeylər necə ola bilir?***

- Azərbaycan tərəfindən Laçın dəhlizinə alternativ yol çəkməsi Bakının üzərinə götürdüyü öhdəlikləri yerinə yetirdiyinin daha bir sübutudur. Laçın dəhlizi Rusiya FTX-nin sərhəd xidmətinin nəzarətində olacaq, Zəngəzur dəhlizi üçün də analoji rejimin fəaliyyət göstərəcəyi anlaşılır. Dəhliz ekstraterritorial statusa malik olmalıdır. Əgər Ermənistan bu dəhlizə nəzarət etməkdə israr etməkdə davam edərsə, o zaman Azərbaycanın rəsmi orqanları Laçın dəhlizində olacaq. Ermənistan israr etməkdə davam edərsə, onsuz da reallığı qəbul etməli olacaq.

Əgər Qarabağda yaşayan ermənilər hərbi cinayətlər, təxribat əməlləri ilə ləkələnməyiblərsə, prezident İlham Əliyevin onlara digər Azərbaycan vətəndaşları ilə bərabər hüquq və azadlıqlar veriləcəyi ilə bağlı dediyi sözlər qüvvədə olacaq. Təbii ki, Qarabağ ermənilərinin heç bir muxtariyyəti və xüsusi statusu olmayacaq- bu, mümkün deyil. Azərbaycan bütövdür və bölünməzdir. Məsələn, biz görürük ki, ”soyqırım” söhbətinə baxmayaraq, ermənilər Türkiyəyə normal səyahət edirlər, heç bir problem olmadan orada yaşayır, işləyirlər. Eynilə, Qarabağ erməniləri də Azərbaycan Qarabağı ərazisində yaşaya biləcəklər.

Evlərin yandırılması ilə bağlı vəziyyətə gəlincə. Açıq deyək, axı Laçında əsasən Yaxın Şərqdən - Suriyadan, Livandan, bir sıra başqa ölkələrdən gələn erməni mühacirlər yaşayır. Yaxud Laçın rayonunu Ermənistan tərəfi işğal edəndən sonra qeyri-qanuni, həyasızcasına, ölüm qorxusu ilə torpaqlarını tərk etməyə məcbur qoyulan azərbaycanlıların evlərinə köçənlər. Həm də onlar axı öz evlərini yandırmırlar, bu başqasının evidir. Eyni şey 2020-ci ilin sonunda da baş verdi. Yaşayış fondunun yandırılması, dağıdılması, ağacların kəsilməsi və sair vəhşiliklər bu torpaqların onlara yad olduğunu göstərir. Bunlar sonradan- bu yaxınlarda Azərbaycan torpaqlarına gəliblər. İndi onlara deyiblər ki, vəziyyət dəyişib və onlar ənənəvi olaraq özlərini qurban kimi göstərməyə çalışırlar. Amma onların bu hoqqaları vəziyyətə təsir etməyəcək. Qarabağ bərpa olunacaq, çiçəklənəcək, tamamilə Azərbaycanın qoynuna qayıdacaq və Azərbaycan xalqı müharibənin bütün yaralarını sağaldacaq. Azərbaycan vətəndaşlığını almaq istəyən ermənilər isə mağara millətçiliyindən və sərsəm ”miatsum” ideyalarından həmişəlik imtina edərək, öz seçimlərini sərbəst şəkildə edə biləcəklər.

**Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ

Səs

17 avqust
2022-ci il

# Qarpızla bağlı yaşananlar...mif imiş?

"Qarpızın tərkibində orqanizmi "təmizləyən" və iştahla mübarizə aparan çoxlu lif (kompleks karbohidratlar) olduğuna dair geniş yayılmış fikir var. Amma əslində bu mifdir. Çünki bostan məhsulları arasında bəlkə də ən az lif qarpızda imiş: 100 qram məhsula cəmi 0,4 qram lif düşür. Müqayisə üçün deyim ki, məsələn digər bostan məhsulu olan qovunun 100 qramında bu göstərici 0,9 qramdır.



Beləliklə, qarpızla bağlı yaşanan məşhur mifi həkim-endokrinoloq Zuxra Pavlova "vurub dağıdıb".

Belə ki, həkim pəhrizdə onların miqdarına nəzarət etməyi və həddindən artıq qarpız yeməməyi tövsiyə edir.

"...Biz qarpız yeyəndə əsasən suyu, şəkəri və vitaminləri uduruq. Bu, ən təmiz formada naharı tamamlamaq üçün lazım olan bir desert yeməyidir".

Sual olunur, indi biz qarpızı yeyək və ya yeməyək. Pavlova "əlbəttə, indi mövsümdür yemək lazımdır. Amma... ondan sonra əzələləri bərpa etməlisiniz ki, bu da yaşla bağlı olaraq getdikcə çətinləşir" - deyə bildirib.

***Nazlı Almuradova***

# "Çalışacağıq ki, son sınaqdan faydalı şəkildə istifadə edək"

**BAŞ MƏŞQÇİ AÇIQLADI**




**"İlkin mərhələdə çox fərqli-fərqli rəqiblərə qarşı oynadıq. Bu komanda digərlərindən tam fərqlənir". SİA xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında "Qarabağ" komandasının baş məşqçisi Qurban Qurbanov bildirib.**

Baş məşqçinin sözlərinə görə, Çexiya futbolu hər zaman digərlərindən fərqlənir: "Oyunlarına baxarkən öz tapşırıqlarını sevə-sevə həyata keçirdirlər. Çalışacıyıq ki, son sınaqdan faydalı şəkildə istifadə edək. Hiss edirik ki, bu oyuna olan maraq həddən artıq çoxdur. Futbolçularımızla birlikdə daha güclü bir komanda olmağa çalışacıyıq. Biz 6 il əvvəl bu komandaya qarşı oynamışdıq və 2:0 hesabı ilə məğlub olmuşduq. Hər bir oyun mənim və futbolçularım üçün təcrübədir. Bu il gərgin oyunlarımız çox oldu. Bizim illik planlarımız var. Mən hər zaman futbolçularıma arxayın olmuşam. Rəqib komandanın baş məşqçisinin sözlərindən də hiss olunur fərqli oyun nümayiş etdirə bilərlər. Azərbaycan xalqının futbola olan marağı məni çox sevindirir. Mən çox istərdim ki, təkcə beynəlxalq oyunlarda deyil, yerli oyunlara da olan maraq getdikcə artsın".

***Banuçiçək Hüseynli***

# Bakıda işlədiyi yerdən çıxan qadın itkin düşüb

Bakıda 27 yaşlı qadın itkin düşüb. SİA-nın məlumata görə, hadisə avqustun 11-də Səbail rayonu, Salyan yolu 32 ünvanında qeydə alınıb.

Belə ki, 1995-ci il təvəllüdlü Hacıyeva Dinara Vüsal qızı işlədiyi "Gəncə təndiri" adlı çörək sexindən saat 21 radələrində çıxıb və bir daha geri qayıtmayıb.

Faktla bağlı Səbail Rayon Polis İdarəsinin 41-ci Polis Bölməsində araşdırma aparılır.



# Dünyanın yeddi möcüzəsindən biri olan...

...Artemida məbədinin Türkiyənin antik Efes şəhərində yerləşdiyini bilirsinizmi? SİA bu barədə Türkiyə saytlarına istinad edir.

Dünyanın yeddi möcüzəsindən biri olan Artemida məbədinin Türkiyənin antik Efes Şəhərində yerləşdiyini bilirsinizmi?

İzmir vilayətinin Səlcuq qəsəbəsi sərhədləri daxilində yerləşən Efes dünyanın məlum olan ilk yaşayış məntəqələrindən biridir. 8000-ci illərə qədər uzanan qədim Efes şəhəri mühüm ticarət yolları üzərində yerləşməsi ilə tarix boyu bir çox fərqli sivilizasiyaya ev sahibliyi etmişdir. Ellinistik Dövr, Roma İmperiyası, Bizans İmperiyası, Osmanlı İmperiyası kimi fərqli sivilizasiyalara şahidlik etmiş şəhər əsrlər boyu fasiləsiz məskunlaşma, siyasi və ticarət mərkəzi xüsusiyyətini qoruyub saxlamışdır.

Dünyanın yeddi möcüzəsindən biri olan və möhtəşəm quruluşu ilə tarixin ən böyük məbədlərindən biri olan Artemida məbədi antik Efes Antik şəhərinin simvollarından biridir. Eramızdan əvvəl 550-ci ildə tamamlanan məbəd eramızdan əvvəl 400-cü ildə baş verən yanğında ciddi ziyan görüb. Hazırda məbəddən yalnız mərmər sütunlar qalıb.

İldə orta hesabla 1,5 milyon insanın ziyarət etdiyi Efesdə arxeoloji qazıntıların tarixi 125 il əvvələ gedib çıxır. Hələ tam üzə çıxarılmayan və Anadolu arxeologiyasına yeni məlumatlar qazandırmağa davam edən antik Efes şəhəri 2015-ci ildən YUNESKO-nun Ümumdünya Mədəni İrs Siyahısında yer alır.

# Günəşin doğuşu və qürubunun ən gözəl olduğu yer - Nemrut dağı





**Adıyaman Muzeyinin direktoru Mehmet Alkan bu il Nemrut dağına çox turist gəldiyi ilə bağlı deyib...**

Türkiyənin Adıyaman rayonunun Kahta qəsəbəsi yaxınlığında "Günəşin doğması və qürubunun ən gözəl olduğu yer" kimi tanınan, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) Dünya Mirası Siyahısına daxil olan Nemrut dağı həftə sonu 1000 nəfəri qəbul edib. SİA bu barədə Türkiyə saytlarına istinad edir.

Hündürlüyü 50, diametri 150, hündürlüyü 2150 metr, Kommageniya Krallığına (e.ə. 163 - e.ə. 72) aid nəhəng heykəlləri olan Nemrut dağı xarabalıqları günəşin üfüqdən boylanmasını və qüruba enməsini seyr etmək istəyənləri cəlb edir.

Adıyaman Muzeyinin direktoru Mehmet Alkan bu il Nemrut dağına çox turist gəldiyi ilə bağlı deyib: "Bütövlükdə Kral Antioxosun məzarlığının olduğu güman edilir. Buraya gələn qonaqlar xüsusilə günəşin doğuşunu, qürubunu və nəhəng heykəlləri seyr edərək heyran qalırlar. Bu həftə sonu Nemrut dağına 1000 qonaq gəlib. Onların bir çoxu burada həm

## ELAN

Həsənov Babək Vaqif oğlunun idarə etdiyi 99C845 dövlət nömrə nişanlı motosikletin nömrəsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3450**